Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5
İYUN
2019-cu il
№ 99 (3997)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

## ERMƏNİSTAN MEDİASI PUTİNİ QARALAMAĞA BAŞLADI - NURSULTANDA PAŞİNYANLA GÖRÜŞDƏN İMTİNAYA AŞAĞILAYICI İZAH...

səh. 5

Təhsil müəssisələrinin xüsusi mühafizəsi Prezident fərmanı ilə rəsmiləşdirildi

səh. 11

Azərbaycanın yeni silah və texnikası barədə Ermənistanda dərin müzakirələr - Aprel döyüşlərinin parlament təhqiqatına müqavimət var

səh. 9

"Şimal axını"na qarşı ABŞ-Rusiya çəkişməsi Avropada Azərbaycan qazına marağı artırır

səh. 4

İstanbul merliyi uğrunda mübarizənin ikinci mərhələsi yaxınlaşır - rəy sorğularına görə İmamoğlu yenə önə çıxır...

səh. 7

Orucluq bayramının əsl vaxtına elmi rəsədxana ilə dini cərəyanların fərqli münasibəti...

səh. 12

Fəlsəfə İnstitutunun və muzeyin direktoru seçki ilə?

səh. 11

Namaz vaxtı məscidlərin qabağında tıxacdan keçmək mümkünsüz olur - ibadətə avtomobilsiz gəlmək olmazmı...

səh. 13



səh. 8

## Separatçı «DQR» şəhərlərini fransızlarla süni qardaşlaşdırma cəhdlərinə ağır məhkəmə zərbəsi...

*Fransa Məhkəməsi erməni lobbisinin on illərlə milyonlar tökdüyü layihəni alt-üst etdi*



**Azərbaycan İslam ölkələrinin Ermənistana vahid siyasət kursuna doğru daha bir addım atdı...**

səh. 4

Ermənilərin mayorumuzu şəhid etməsinin arxa hədəfi göründü - atəşkəsə nəzarət mexanizmi gündəmə gətirildi...

səh. 3




**SOCAR «Türkiyə təcrübəsi»nin Rusiyada da tətbiqinə hazırlaşır...**

səh. 6

səh. 7

Davudoğludan Türkiyənin indiki hakimiyyətini səksəndirən bəyanat - Əhməd bəy nə demək istədi...



səh. 5

Türkmənistan əsas diqqəti TAPI-ya cəmləyir, "Transxəzər" unudula bilərmi...



səh. 10

Maliyyə Palatası kompensasiyaları qüsursuz payladı, bankların ödənişlərindən narazılıqlar hələ araşdırılmayıb - "Unibank" kimi...



səh. 15

Azərbaycanda milli oyuncaqlar istehsalı - boşluq olduğu üçün xarici idxalçılar fəallaşır



səh. 15

Bakıətrafı avtobuslarda uşaq konduktorlar yenə peyda olmağa başlayıb



## Avropadan Azərbaycana gələn turistlərə sadələşdirilmiş vizaların verilməsi üçün danışıqlar aparılır

**Avropa İttifaqı ölkələrindən Azərbaycana daha çox turistin gəlməsi üçün onlara sadələşdirilmiş vizaların verilməsi, vizaların hava limanlarında birbaşa ala bilmələri üçün danışıqlar aparılır.**



"Trend"in məlumatına görə, bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib.

Onun sözlərinə görə, ölkəyə turistlərin cəlb edilməsi üçün hazırda 6 istiqamət üzrə iş aparılır.

F.Nağıyev əlavə edib ki, yay turizm mövsümündə Azərbaycana Çin, Hindistandan turistlərin gələcəyi gözlənir: "Bu turistlər artıq ölkədə müşahidə edilir. Bu yay Avropa ölkələrindən də Azərbaycana turistlərin gələcəyi gözlənir".

## Yunus Oğuzun əsərləri rus və ingilis dillərində Rusiyanın "Ridero" nəşriyyatında çapdan çıxdı




**Olaylar.az xəbər verir ki, əsərləri dünyanın bir çox ölkəsində çap olunan yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuzun əsərləri Rusiya nəşriyyatlarının diqqətini cəlb edib.**

Belə ki, yazıçının "Attila" tarixi romanı rus və ingilis, "Şah arvadı və cadugər", "Əmir Teymur" (Tamerlan) tarixi romanları rus, "Nadir Şah" tarixi romanı isə ingilis dilində Rusiyanın məşhur "Ridero" nəşriyyatında çapdan çıxıb.

Yunus Oğuzun əsərləri "Beta.ridero.ru"da da böyük populyarlıq qazanıb. Belə ki, yazıçının adı saytın ən populyar bölməsində trendə düşüb.

## Azərbaycanın bütün regionlarında sənaye məhəllələrinin yaradılması planlaşdırılır

**Gələcəkdə Azərbaycanın bütün regionlarında sənaye məhəllələrinin yaradılması planlaşdırılır. "Trend"in məlumatına görə, bunu İqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə deyib.**

O bildirib ki, hər bir regionun ehtiyaclarını araşdırmaq və sahibkarlar üçün daha çox maraq kəsb edən sahələr üzrə sənaye parkları və məhəllələri yaratmaq lazımdır.

Nazir əlavə edib ki, bu ilin sonunadək Hacıqabul və Sabirabadda sənaye məhəllələri açılacaq.

## Azərbaycanda qoruqlarla bağlı yeni qurumun yaradılması təklif edilib

**Dövlət Turizm Agentliyi Azərbaycanda qoruqların fəaliyyəti ilə bağlı yeni qurumun yaradılmasını təklif edib. "Trend"in məlumatına görə, bunu agentliyin sədri Fuad Nağıyev deyib.**

Onun sözlərinə görə, Dövlət Turizm Agentliyinin tabeliyində qoruqlarla bağlı publik hüquqi şəxs qismində Qoruqların İdarəetmə Mərkəzinin yaradılmasını təklif ediblər: "Hazırda Nazirlər Kabinetində bu məsələyə baxılır. Qoruqların həmin mərkəz vasitəsilə idarəolunması təklif edilir. İstəyirik ki, proseslər şəffaf keçsin. Qoruqlarda turniketlər quraşdırılacaq və biz qoruqların bütün gəlirlərini görəcəyik. Həmin mərkəzin gəlirləri ehtiyacı olan başqa qoruqların inkişafı üçün yönəldiləcək".

F.Nağıyev əlavə edib ki, hazırda Dövlət Turizm Agentliyinin tabeliyində 7 qoruq fəaliyyət göstərir. Qoruqların bəzilərində müəyyən işlərinin görülməsinə ehtiyac var.

Agentlik sədrinin məlumatına görə, artıq "Yanardağ"da muzey, uşaqlar üçün əyləncə məkanları, kafe, 500 nəfərlik amfiteatr yaradılıb: "Hesab edirəm ki, "Atəşgah"ı da turistlər üçün cəlbedici etmək üçün nələrsə yaradılmalıdır. Yaxın zamanlarda orada muzey, uşaqlar üçün əyləncə məkanı yaradacağıq. Qoruqlara giriş 18 yaşa qədər uşaqlar üçün pulsuz, yerli əhali üçün indiki kimi 2 manat olacaq. Amma əcnəbilər üçün qiyməti bir qədər fərqləndirmək istəyirik. Bu təcrübə başqa ölkələrdə də var. Müşahidə edirik ki, hər ay 15 min turist "Yanardağ"a, 20 mindən çox turist "Atəşgah"a gəlir".

# Ramiz Mehdiyev Dağlıq Qarabağ probleminin həllində Ermənistanın qaçırdığı şanslardan yazdı

**Bu il mayın 12-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəs haqqında saziş əldə edilməsinin 25 illiyi tamam oldu.**

Azərbaycan o vaxt son dərəcə vacib olan bu sazişi bağlayarkən bunu əsas götürürdü ki, cəbhə xəttində hərbi əməliyyatların dayandırılması danışıqlar prosesinin daha da fəallaşdırılması üçün əlverişli şərait yaradacaq və yaxın gələcəkdə münaqişənin siyasi yolla həllinə nail olmağa kömək edəcək. Lakin Ermənistanın hakim dairələrinin cəmiyyətin radikal millətçi təbəqələri və diaspor tərəfindən dəstəklənən pozucu siyasəti bu yolda əsas əngəl oldu. Bütün bu illər ərzində regionda sülhə və təhlükəsizliyə ciddi təhdid mənbəyi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu gün də Cənubi Qafqaz



ölkələrinin tamdəyərli əməkdaşlığına manea yaradır.

"Trend"in məlumatına görə, bu barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" adlı məqaləsində deyilir.

Müəllifin sözlərinə görə, bu illər ərzində erməni cəmiyyəti döyüş meydanında qazanılan "qələbə"ni tezliklə diplomatik sahədə möhkəmləndirmək ümidi ilə yaşayıb: "Lakin Ermənistan rəhbərliyi bir məsələni başa düşə bilməyib ki, qonşu dövlətə təcavüz etməklə, onun ərazisini işğal etməklə, etnik təmizləmələr aparmaqla, şəhər və kəndləri viran qoymaqla Ermənistan, əslində qalib gəlməyib, uduzub! O bu qədər fürsəti əldən verərək sülhü uduzub. Bunu başa düşmək üçün bugünkü Azərbaycanı Ermənistanla müqayisə etmək, onların sosial-iqtisadi inkişafında fərqi qiymətləndirmək kifayətdir və bu fərq ildən-ilə daha da artacaq. Məsələn, 2018-ci ilin sonuna olan vəziyyətə görə, Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatını 4 dəfə üstələyib, Azərbaycanın strateji valyuta ehtiyatları Ermənistanın analoji göstəricilərindən 20 dəfə, əhalisi isə 3,3 dəfə çoxdur. Təəssüf ki, erməni cəmiyyəti münaqişəyə münasibətini rasionallaşdırmağa və münaqişənin ədalətli həllinin real iqtisadi faydasını görməyə hələlik özündə güc tapmayıb".

# KİVDF ictimai-siyasi qəzetlər və jurnalistlər üçün müsabiqələr elan edib

**İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.**

Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq gündəliyi elan edib: 1. 2019-cu ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi; 2. Fondun 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsi elanının müzakirəsi və təsdiqi.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki məsələ barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İcraçı direktor 2019-cu ilin II yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqənin iyunun 4-dən 27-dək "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçiriləcəyini bildirib. Vüqar Səfərli bildirib ki, ictimai-siyasi qəzetlərin 2019-cu ilin II rübündə qüvvədə olmuş qaydada əsasında - 3 kateqoriya üzrə (gündəlik, günaşırı və həftəlik)




maliyyələşdirilməsi təklif edilir.

İcraçı direktor bildirib ki, I kateqoriyaya əsasən, son 3 ildə müntəzəm nəşr olunan, tirajı 3000 nüsxədən, satış və abunəsinin cəmi 2000 nüsxədən, müsabiqə elan edilən günədək səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan gündəlik (həftədə 5 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin maliyyələşdirilməsi, onlara aylıq 20 min manat maliyyə yardımının ayrılması təklif olunur.

II kateqoriyaya əsasən, son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən günədək səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan, günaşırı (həftədə 3 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin maliyyələşdirilməsi, onlara aylıq 10 min manat maliyyə vəsaitinin ayrılması məqsədəuyğun sayılır.

Vüqar Səfərli qeyd edib ki, III kateqoriyaya əsasən, son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən günədək səhifələrinin sayı 24-dən (A3, B2 formatda) az olmayan həftəlik ictimai-siyasi qəzetlərin maliyyələşdirilməsi, onlara aylıq 5 min manat maliyyə vəsaitinin ayrılması təklif olunur.

Sonra məsələ ətrafında geniş müzakirələr aparılıb. Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Rasim Həsənov və Əvəz Rüstəmov KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı irəli sürülən təklifi qənaətbəxş qiymətləndiriblər. Müsabiqə elanı səsə qoyularaq yekdilliklə qəbul edilib.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən Vüqar Səfərli bildirib ki, Fondun 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə elan edəcəyi ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin 2019-cu il iyunun 4-dən iyulun 12-dək 19 istiqamət üzrə keçirilməsi təklif olunur. Vüqar Səfərli müsabiqənin şərtlərinə əsasən I yerin qalibi üçün 500, II yerlər üçün 400, III yerlər üçün 300 manat mükafatın nəzərdə tutulduğunu vurğulayıb.

Müşahidə Şurasının üzvləri müzakirələr zamanı Fondun keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyinin stimullaşdırılması və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkiblər. Daha sonra müsabiqənin elanı səsə qoyularaq yekdilliklə təsdiq edilib.



# Ermənilərin mayorumuzu şəhid etməsinin arxa hədəfi göründü - atəşkəsə nəzarət mexanizmi gündəmə gətirildi...

## *Akif Nağı: "Ermənilər bu cür insidentlər yaratmaqla diqqəti əsas məsələdən yayındırmağa çalışırlar"*

**Azərbaycan Ordusunun mayorunun cəbhənin təmas xəttində ermənilər tərəfindən snayperdən açılan atəşlə öldürülməsindən sonra erməni təbliğat maşınının apardığı iş onların əsl niyyətlərini aşkar edib. Görünən budur ki, erməni tərəfi həmin hadisənin fonunda özlərini təmizə çıxramağa, əsl istəklərini dilə gətirməyə çalışır.**

*"Atəşkəsin qorunub saxlanmasının yeganə yolu Ermənistanı işğaldan çəkindirməkdir"*

Tanınmamış "DQR"in "Xarici İşlər Nazirliyi" adından yayılan bəyanatda bildirilir ki, həmin hadisədən sonra ermənilər yenidən atəşkəsə nəzarət mexanizmlərinin bərpasının zərurliyini dilə gətirib və bu istiqamətdə aktiv təbliğat aparırlar. Bəyanatda qeyd edilir ki, belə bir mexanizmin olmaması analoji ölüm hallarının artmasına səbəb olur.

Məlumdur ki, Azərbaycan tərəfi də atəşkəsin qorunub saxlanmasında maraqlı olduğunu gizlətmir. Ancaq biz haqlı olaraq tələb edirik ki, bu cür ikinci dərəcəli məsələləri gündəmə gətirmək gərək deyil. Əslində, ermənilər bununla danışıqlar prosesini uzatmaq istəyirlər. Biz status-kvonun dəyişməsini tələb edirik. Əgər ermənilər işğal olunmuş ərazilərdən çıxsa, təbii ki, orada atəşəkəsə beynəlxalq nəzarət mexanizminin tətbiqinə də ehtiyac olmayacaq. Həmin tələblərin içində ermənilər snayperlərin geri çəkilməsini də təkidlə tələb edirlər. Azərbaycan Ordusunun mayoru ilə bağlı baş verən son hadisə sübut etdi ki, bu, birbaşa ermənilərin məqsədli şəkildə törətdiyi bir hərəkət olub. Bununla ermənilər diqqəti danışıqların vacib mövzusundan, atəşkəsə beynəlxalq nəzarət mexanizminin tətbiqinə yönəltmək istəyirlər. Ermənilərin bu təxribatı tam çılpaqlığı ilə ifşa oluna bildimi?

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin son canfəşanlığının arxasında duran maraq bəlli oldu:** "Onsuz da biz bunları bilirik. Ancaq bu dəfə Ermənistan daha ciddi cəhdlə bu məsələni qabartdı və öz təxribatını ifşa etmiş oldu. Mayorumuzun şəhid olmasından dərhal sonra Ermənistan XİN, indi də qondarma "DQR"in "rəsmi qurumu" demək olar ki, eyni məzmunlu bir bəyanat yaydılar. Hər ikisində qeyd olunur ki, atəşkəsə nəzarət mexanizmləri gücləndirilməlidir. Onlar hesab edirlər ki, bu var, amma bir qədər də gücləndirmək lazımdır. Bu gün də Kasprişikin iştirakı ilə orada monitorinq keçirildi. Bu tələbin üstündə ermənilər çoxdan durur. Məqsəd də ondan ibarətdir ki, nə qədər mümkündürsə, status-kvonu qorusunlar. Çünki bu şərait onlara sərf edir. Bizim də bununla bağlı mövqeyimiz bəllidir. Biz ermənilərin atəşkəsdən istifadə edib öz məkrli niyyətlərini həyata keçirməsinə qarşıyıq. Məsələyə bir qədər geniş aspektdən yanaşmalıyıq. Problemi aradan qaldırmaq istəyirlərsə, məsələyə bir qədər köklü yanaşsınlar.

**Nə üçün atəşkəs pozulur və bunun nəticəsində insanlar ölür? Çünki Ermənistanın işğalçı qüvvələri Azərbaycan ərazisindədir. Əsas səbəb kimi bu aradan qaldırılmasa, problemin həlli mümkün deyil. Ermənilər bu cür insidentlər yaratmaqla diqqəti əsas məsələdən yayındırmağa çalışırlar. Qoy beynəlxalq təşkilatlar da görsünlər ki, atəşkəsin qorunub saxlanmasının yeganə yolu Ermənistanı işğaldan çəkindirməkdir. Əks halda, bu narahatlıq daim yaşanacaq".**

***Məhəmmədəli QƏRİBLİ***



# Azərbaycan İslam ölkələrinin Ermənistana vahid siyasət kursuna doğru daha bir addım atdı...

## *Məhəmməd Əsədullazadə: "Hesab edirəm ki, bu mötəbər qətnamə bir sıra müsəlman ölkələri tərəfindən qəbul edilməlidir"*

**Məlum olduğu kimi, mayın 31-də Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) dövlət və hökumət başçılarının 14-cü Zirvə toplantısı keçirilib. Toplantı nəticəsində yekun kommünike sənədi qəbul edilib.**



*"Bu kimi sənədləri qanunverici orqanlarında qəbul edərlərsə, işğalçı ölkəyə ciddi təzyiq etmiş olacaqlar"*

Yekun sənəddə Qarabağla bağlı bir sıra maraqlı məqamlar yer alıb. Belə ki, sənədin 34-cü və 35-ci bəndlərində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti ilə bağlı İƏT-in prinsipial mövqeyi öz əksini tapıb. Bu bəndlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti pislənir, beynəlxalq hüquq və BMT Nizamnaməsi ilə ərazilərin güc tətbiq etməklə işğalının qəbuledilməzliyi təsdiqlənir, BMT TŞ-nin 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi və işğalçı qüvvələrin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Sənəddə İƏT dövlət və hökumət başçıları münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həllinə çağırır. Ən maraqlı məqam ondan ibarətdir ki, sənəddə işğala xidmət edəcək hər hansı fəaliyyətin qanunvericiliklə qarşısının alınması tələbi öz əksini tapıb. İƏT-ə üzv ölkələrdən effektiv tədbirlərin həyata keçirilməsi, o cümlədən, işğalçıya öz ərazilərindən və ya əraziləri vasitəsilə silah ötürülməsinin, fiziki və hüquqi şəxslərin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hər hansı fəaliyyətinin və işğalın saxlanmasına xidmət edəcək hər hansı fəaliyyətin milli qanunvericilikləri vasitəsilə qarşısının alınması tələb olunur. Sənəddə Azərbaycanın BMT Baş Assambleyası vasitəsilə də daxil olmaqla, ərazi bütövlüyü və suverenliyini bərpa etmək səylərinə prinsipial dəstək bir daha təsdiq olunur.

İƏT zaman-zaman keçirdiyi toplantılarda Qarabağla bağlı Azərbaycanın mövqeyini dəstəkləyib. Ancaq indi bu məsələ ilə bağlı məqamların qanunvericiliyə salınması məsələsi yenilikdir. Ona görə də bunun əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən müsbət yanaşdı:** "İslam Əməkdaşlıq Təşkilatı ölkəmizin ərazi bütövlüyünə daim siyasi dəstək verib. Təşkilat, birmənalı olaraq, qəbul etdiyi qətnamələrdə Ermənistanı işğalçı ölkə adlandırıb və ərazilərin boşaldılmasını tələb edib. Bu cür yanaşma analoji olaraq hər konfransda elan edilir. Ancaq təəssüf ki, təşkilatın təzyiq mexanizmi yoxdur. Buna baxmayaraq, İƏT üzvü olan dövlətlər işğalçıya təzyiq etmək iqtidarındadırlar. Qeyd edim ki, müsəlman ölkələrinin bir neçəsi işğalçı Ermənistanla heç bir əlaqəyə malik deyil. Təşkilatın əsas strategiyası isə bütün üzv dövlətləri işğalçıya qarşı səfərbər etməkdir. Məhz qəbul edilən bu kommünikedə üzv ölkələrin qanunverici orqanları da eyni qətnamənin qəbul edilməsinə çağırılır. Hesab edirəm ki, bu mötəbər qətnamə bir sıra müsəlman ölkələri tərəfindən qəbul edilməlidir. Bu kimi sənədləri qanunverici orqanlarında qəbul edərlərsə, işğalçı ölkəyə ciddi təzyiq etmiş olacaqlar. Azərbaycan bu istiqamətdə islam ölkələri ilə danışıqlar aparmalı və bu kimi qərarların qəbul edilməsinə nail olmalıdır. Yeni dünya nizamı formalaşır və belə bir dövrdə işğalçı ölkəyə qarşı təzyiq mexanizminə gedilsə, bu, sülhə və təhlükəsizliyə xidmət edəcək. Belə bir qətnamə Azərbaycana siyasi dəstək vermiş oldu və digər İslam ölkələri bunu əməldə nümayiş etdirsələr, öz siyasi nüfuzları qalxacaq".

***Vidadi ORDAHALLI***

# "Şimal axını"na qarşı ABŞ-Rusiya çəkişməsi Avropada Azərbaycan qazına marağı artırır

**Rusiya və ABŞ arasında Avropanın qaz bazarı uğrunda rəqabət getdikcə kəskinləşir. Böyük həcmdə maye qaz istehsalına başlayan ABŞ bunun üçün ən yaxşı satış bazarı qismində Avropanı görür. Amma ABŞ-dan maye qazın Avropaya ixracı baha başa gəlir. Digər tərəfdən regionda rus qazının mövcudluğu ABŞ-ın işini çətinləşdirir. Amma Avropanın bəzi ölkələrinin Rusiya qazının alışına qarşı çıxması indiki vəziyyətdə Vaşinqtonun lehinə işləyən amil kimi dəyərləndirilir.**




İndilikdə isə görünən budur ki, ABŞ və Rusiyanın qaz çəkişməsi davam edəcək. Amma bu fonda Azərbaycan qazı artıq gələn ilin əvvəlindən Avropaya çatacaq. Özü də artıq Avropa Azərbaycandan nəzərdə tutulduğundan daha çox həcmdə qaz almağa hazır olduğunu bəyan edib. Qeyd olunduğu kimi, gələn ilin əvvəlindən TAP kəmərilə Azərbaycan qazının Avropaya kommersiya tədarükünə başlanacaq. Araşdırmalar göstərir ki, ABŞ və Rusiya arasında kəskinləşən rəqabət fonunda Şərqi Avropa ölkələri Azərbaycanın "Cənub Qaz Dəhlizi"nə getdikcə daha çox maraq göstərir. Azərbaycan isə bu gedişlə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayacaq, çünki təkcə tədarükçü kimi yox, həm də Türkmənistan və perspektivdə Qazaxıstan qazının tranzit ölkəsi kimi çıxış edəcək. Bu durumda isə Rusiyanın "Şimal axını-2" layihəsi ətrafında Moskva - Vaşinqtonla münasibətləri daha gərgin mərhələyə qədəm qoyur.

ABŞ Dövlət Departamenti belə vəhziyyətdə yenidən Avropa İttifaqını "Şimal axını-2" layihəsindən imtina etməyə çağırıb. ABŞ senatorları isə artıq yeni sanksiyalara hazırlıq görərək, "Şimal axını-2" borusunun tikintisində istifadə olunan gəmilərə sığorta xidmətlərini göstərən fiziki və hüquqi şəxslərə qarşı ən azı beş növ sanksiyanın tətbiq olunmasını təklif ediblər. Sözügedən təkliflərin qeyd olunduğu qanun layihəsi mayın 14-də Konqresə təqdim olunub, lakin sənədin tam mətni iyunun 4-də dərc olunub. Təklif olunan sanksiyalara, həmçinin, aşağıdakılar daxildir: ixrac lisenziyalarının verilməsinə qadağa; il ərzində ümumi həcmi 10 milyon dollardan artıq kreditlərin alınmasına qadağa; ABŞ dövlət borcları və ya federal maliyyə vasitələri üzrə əməliyyatlara qadağa; ABŞ yurisdiksiyası zonasında ödənişlərin aparılmasına və əmlak əməliyyatlarına qadağa; ABŞ ərazisinə daxil olmaq qadağası və Rusiya boru kəmərinin tikintisində istifadə olunan gəmilərin satışı, kirayəsi və təmir edilməsində iştirak edən şəxslərin ABŞ yurisdiksiyasında aktivlərinin dondurulması.

Qanun layihəsinin müəllifləri senatorlar Ted Kruz, Cin Şaxin, Con Barraso və Tom Kottondur. "Foreign Policy" jurnalı güman edir ki, iki tikinti şirkəti bu sanksiyaların hədəfinə tuş gələ bilər. Bunlar İsveçrənin "Allseas" və İtaliyanın "Saipem" şirkətləridir. Sanksiyaların "Türk Axını" layihəsinin dəniz hissəsinin də reallaşmasına təsir edə biləcəyi bildirilir. Bir daha xatırladaq ki, 1220 kilometr uzunluğundakı "Şimal axını-2" qaz boru kəməri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr qaz nəql etmək gücünə malik olacaq. Rusiyanın enerji nəhəngi "Qazprom" açıqlayıb ki, "Şimal axını-2" layihəsi 2019-cu ilin sonunadək başa çatdırılacaq. Baltikyanı ölkələr, Polşa və Ukrayna "Şimal axını-2" qaz boru kəmərinin tikintisinə qarşı çıxır. Bu ölkələr hesab edirlər ki, "Şimal axını-2" iqtisadi layihə deyil və Avropanın bütövlüyünə zərbə vurmağa hesablanıb. ABŞ da Almaniyanın Rusiya ilə "Şimal axını-2" qaz razılaşmasını imzalamasına qəti etiraz edir və iddia edir ki, bununla Avropanın Rusiyadan qaz asılılığı daha da artacaq. Vaşinqton ehtiyat edir ki, "Şimal axını-2" qaz kəmərinin təhlükəsizliyini bəhanə edərək, Moskva gələcəkdə Baltik dənizindəki hərbi mövcudluğunu gücləndirəcək. Bu arada xatırladaq ki, bir müddət əvvəl Avropa İttifaqı ölkələrinin enerji səfirləri "Şimal axını-2" kimi kəmərlərlə qaz verilməsinin tənzimlənməsində blokun qaydalarının genişləndirilməsi ilə bağlı yeni təklifi qəbul edib. Razılaşmaya əsasən, Almaniyanın tənzimləyici orqanları "Şimal axını-2" kimi layihələrə nəzarət edəcək, amma son sözü Avropa İttifaqının tənzimləyiciləri deyəcək. Ekspertlər deyir ki, yeni qaydalar işə düşdükdən sonra onlar Rusiyanın "Qazprom" şirkətini Avropa İttifaqının qaydalarına tabe edəcək və onun yeganə operator olmasına imkan verməyəcək. Belə vəziyyət isə Rusiyanı qane etmir. Almaniya da buna qarşı çıxır.. Bu durumda Avropa ölkələri arasında layihə ilə bağlı ikitirəlik də artır. Ekspertlər hesab edir ki, yaranmış vəziyyətdə Avropa digər mənbələrdən, əsas etibarı ilə də Azərbaycandan daha çox qaz almağa çalışacaq.

***Nahid SALAYEV***

# Ermənistan mediası Putini qaralamağa başladı - Nursultanda Paşinyanla görüşdən imtinaya aşağılayıcı izah...

***Qabil Hüseynli:** "Paşinyanla görüşə vaxt ayırmamaq baş itirmək əlamətindən çox, saymazlığa oxşayır"*

**Ermənistan KİV-i Paşinyanın növbəti uğursuzluğunu ört-basdır etmək üçün dəridən-qabıqdan çıxır. Məlum olduğu kimi, Paşinyan belə bir biabırçılığı Avrasiya İqtisadi İttifaqının Nursultan şəhərində keçirilən yubiley toplantısında yaşayıb. Orada iştirak edən bütün ölkə başçılarına Nursultan Nazarbayevin adına xatirə medalı verilsə də, Paşinyan həmin təltifdən kənarda qaldı.**



Eyni zamanda, həmin səfər vaxtı Putinlə Paşinyanın əvvəlcədən nəzərdə tutulan görüşü də reallaşmadı.

Erməni KİV-i görüşün baş tutmasına maraqlı izah verib. Qeyd edilir ki, Paşinyan görüşməyə hazır olub, lakin imtina Putindən gəlib: "Hərçəndi ki, müzakirə etməli bir çox məsələ vardı. Bunu yalnız Moskvanın Ermənistanla bağlı keçirdiyi müəyyən narazılıqlarla əlaqələndirmək olmaz. Bir səbəb də onunla əlaqəlidir ki, Putin artıq Rusiyanı idarə edə bilmir. Böyük şəhərlərdə ciddi narazılıqlar baş qaldırıb. Putinin reytinqi tarixi minimuma enib. Ölkədə məmur özbaşınalığı hökm sürür. Bütün bunlar haqlı sual yaradır: Putin situasiyanı kontrol edə bilirmi?"

Düşmən ölkənin KİV-i, birmənalı olaraq, bu suala yox cavabı verməyə çalışır. Putinin Paşinyanla görüşdən imtinasını erməni mediası niyə belə aşağılayıcı izahla təqdim edir?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, erməni mediasının belə sarsaq iddialar irəli sürməsi bizi təəccübləndirməməlidir:** "Çünki onların şərlərinə-böhtanlarına yaxından bələd olduğumuzdan, biz bunun nə olduğunu bilirik. Qarışqadan fil düzəltməyə adət edən erməni KİV-i bu dəfə də öz "məharətini" göstərməyə çalışıb. Putinin reytinqinin aşağı düşməsi, ölkədə məmur özbaşınalığının olmasının bu məsələ ilə zərrə qədər də əlaqəsi yoxdur. Mən deməzdim ki, Putin Rusiyaya nəzarəti itirdiyi üçün Paşinyanla görüşməyib. Putin təkcə öz ölkəsinə deyil, həm də Rusiyanın maraqları olan regionlara nəzarət edə bilən siyasətçidir. Paşinyanla görüşə vaxt ayırmamaq baş itirmək əlamətindən çox, saymazlığa oxşayır. Sadəcə, erməni mediası bunu utandığından yaza bilmir. Bunu həm də bir adamdan boğaza yığılmaq əlaməti də saymaq olar. Erməni mediası kimi qaralamayıb ki? Nazarbayev, Lukaşenko haqda yazılan səfeh yazılar da buna bənzəyirdi. Artıq nüfuzlu dövlət xadimləri Paşinyana ciddi siyasətçi kimi baxmırlar. Onu keçici bir adam kimi qəbul edirlər. Bu səbəbdən də onunla görüşə vaxt ayırmaq istəmirlər.

**Bu görüş haqqında Putinin razılığının olub-olmadığı da məlum deyil. Ola bilər ki, erməni mediası bu amillə də manipulyasiya edir. Ola bilər ki, Paşinyan zorla belə görüşün baş tutmasını istəyib. İndi də medianın əli ilə Putini şantaj edir. Bütün bunlar göstərir ki, Paşinyan siyasi cəhətdən kal adamdır".**

***Məhəmmədəli QƏRİBLİ***

# Türkmənistan əsas diqqəti TAPI-ya cəmləyir, "Transxəzər" unudula bilərmi...

***İlham Şaban:** "Türkmənistanın "Transxəzər"ə az maraq göstərməsi iki səbəblə bağlıdır"*

**Bu günlərdə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov MDB ölkələrini TAPI qaz kəməri (Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan) layihəsinə qatılmağa çağırıb. Türkmənistan Prezidenti TAPI qaz kəməri layihəsi ilə bağlı işlərin sürətlə davam etdiyini qeyd edib. O MDB ölkələrinə çağrış edib ki, bu layihəyə sərmayə qoyuluşunda iştirak etsinlər.**




*"Aşqabad TAPİ layihəsinin maliyyə yükünün böyük hissəsini ödəyə bilmir"*

Qeyd edək ki, TAPI kəmərinin ümumi uzunluğu 1840 kilometrdir. İldə bu kəmərlə 33 milyard kubmetr qaz ixracı nıəzərdə tutulub. Kəmərin əsas maliyyəçisi Türkmənistandır.

Burada diqqətçəkən məqam odur ki, Türkmənistan rəhbərliyi ölkə qazının "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropa bazarına çıxarılmasına sanki o qədər də həvəs göstərmir. Baxmayaraq ki, bununla bağlı Türkmənistana bir sıra çağrışlar ünvanlanıb. Məsələn, ABŞ Prezidenti Donald Tramp Novruz bayramı münasibətilə Türkmənistan Prezidentinə təbrikində qeyd edib ki, Türkmənistan Xəzər dənizinin yeni hüquqi statusundan istifadə edərək öz qazını Avropa üçün ixrac edə bilər: "Ümid edirəm ki, Türkmənistan bu yaxınlarda müəyyən edilmiş Xəzər dənizinin hüquqi statusu ilə əlaqədar Qərbə qaz ixracı imkanlarından istifadə edə bilər".

Digər tərəfdən, bu ilin fevralında Avropa İttifaqı Türkmənistana Avropaya qazı Azərbaycan vasitəsilə tədarük etməyi təklif edib. Belə ki, Aİ-nin Büdcə və İnsan Resursları Komissiyasının üzvü Günter Ottinger Azərbaycanın mavi yanacaq tranziti üçün infrastruktura malik olduğunu diqqətə çatdırıb.

Ən nəhayət, ABŞ Prezidenti Donald Tramp XXVI Beynəlxalq "Xəzər Neft və Qaz" Sərgisinin keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevə ünvanladığı məktubda bu məsələyə toxunub: "Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər".

Onu da qeyd edək ki, Avropa qaz bazarı Türkmənistan üçün daha sərfəlidir. Ona görə ki, Avropa digərləri ilə müqayisədə qazı baha alır. Avropada qaza olan tələbat ilbeil artır.

Bütün bu deyilənlərin fonunda maraqlıdır, Türkmənistan qazın Avropaya ixrac olunması ilə bağlı layihələrə niyə elə də maraq göstərmir?

**Məsələyə münasibət bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, Türkmənistanın sözügedən məsələyə az maraq göstərməsi iki səbəblə bağlıdır:** "Birinci səbəb TAPI ilə bağlı yaranan maliyyə problemidir. Məsələ ondadır ki, Türkmənistan 2015-ci ildən TAPI layihəsini həyata keçirməyə başlayıb. Layihənin maliyyə yükünün 85 faizi Türkmənistanın üzərindədir. Dörd ilə yaxındır ki, layihə tam hazır olmur. Ona görə ki, Türkmənistan həmin layihənin maliyyə məsələlərini həll edə bilmir. Bu səbəbdən MDB ölkələrinə çağrış edir ki, gəlin layihəyə qoşulun. Çünki Türkmənistan təkbaşına maliyyə yükünün böyük hissəsini daşıya bilmir. Bu səbəbdən "Transxəzər"ə maraq göstərmir. Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsini ona görə tərəfdaşlarla həyata keçirdi ki, bir gün də maliyyəsi kəsilməsin. Yəni həm şirkətlərin maliyyə imkanları, həm də xarici investorlardan alınan kredit xətləri tamamilə yetərli idi. İkincisi, Türkmənistan qazını Avropada alacaq istehlakçı şirkətlər mövcud deyil. Türkmənistan fikirləşir ki, burada risq var. Tutaq ki, Xəzərin dibi ilə qaz kəməri çəkdi, ondan sonra qazı kimə satacaq? Hələlik qazı alacaq şirkətlər yoxdur. Fikrimcə olsa, o zaman Türkmənistanın "Transxəzər"ə marağı artacaq. Düzdür, Avropa İttifaqı ilə ABŞ Türkmənistana qazla bağlı çağırışlar edirlər, bununla bağlı dəstək verəcəklərini deyirlər.

Ancaq konkret iş ortada yoxdur. O mənada ki, istənilən layihə kommersiya layihəsidir. Türkmənistan qazını Avropada alacaq konkret şirkətlər və bununla bağlı müqavilələr olmalıdır. Bu olmadığı üçün, Türkmənistan layihəyə qoşulmaqdan ehtiyat edir".

***Vidadi ORDAHALLI***

# SOCAR "Türkiyə təcrübəsi"nin Rusiyada da tətbiqinə hazırlaşır...

*Azərbaycan Rusiyada da mühüm investorlardan birinə çevriləcək...*

**Bu gün Azərbaycan üçün xarici iqtisadi strategiyada ən mühüm məsələlərdən biri təkcə xaricdən sərmayə axınına nail olmaq yox, həm də ölkənin özünün beynəlxalq miqyaslı investora çevrilməsidir. Qeyd edilən xüsusda atılan addımlar artıq dünya miqyasında Azərbaycana maraq və diqqəti artırır. İndi bir çox ölkələr Azərbaycan sərmayəsini görməkdə maraqlı olduqlarını açıq bəyan edirlər.**

İndilikdə Bakı Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Azərbaycan Dövlət Neft Fondu (ARDNF) vasitəsilə fəal investisiya siyasəti həyata keçirir. Belə ki, təkcə ötən il ARDNF müxtəlif ölkələrdə daşınmaz əmlaka 115 milyon dollar həcmində investisiya edib. Fondun daşınmaz əmlak portfeli həmin tarixə 2,14 milyard dolları keçib. Hazırda fond Londonda dəyəri 120 milyon funt sterlinq təşkil edən ofis kompleksinə, Moskvada dəyəri 3 milyard 269 milyon rubl təşkil edən "Qalereya Aktyor" ofis-ticarət kompleksinə, Parisdə dəyəri 186,1 milyon avro təşkil edən daşınmaz əmlak kompleksinə, Cənubi Koreyada dəyəri 515,5 milyard Cənubi Koreya vonu olan "Payn Avenyu A qülləsi" ofis binasına, Tokioda dəyəri 58,4 milyard yapon yeni təşkil edən ticarət mərkəzinə, İtaliyada dəyəri 99,6 milyon avro təşkil edən "Palazzo Turati" ofis binasına investisiya edib.

SOCAR da dövləti xətti ilə fəal investisiya siyastəti həyata keçirir. Özü də şirkətin getdikcə dünya enenrji sektorunda xüsusi çəkisinin artması müşahidə olunur. İndilikdə isə yayılan məlumatlardan belə bəlli olur ki, Türkiyədən sonra SOCAR Rusiyanın enerji sektorunda böyük bir investisiya layihəsi həyata keçirməyə hazırlaşır. Elə bu günlərdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirib ki, Dövlət Neft Şirkətinin Rusiyadakı Antipin neft emalı zavoduna marağı var. Onun sözlərinə görə, hazırda zavodun alınması ilə bağlı danışıqlar aparılır: "Rusiya bazarı çox böyükdür və bizə maraqlıdır. Ümumilikdə isə SOCAR dünyanın hər yerində danışıqlar aparır". Belə bir vaxtda Rusiyanın "Kommersant" qəzeti məsələ ilə bağlı maraqlı məlumat yayıb. Qəzet yazır ki, SOCAR və Rusiyanın "Sberbank" bankı "SOCAR Enerqoresurs MMC" adlı birgə müəssisə yaradıb. Artıq bu haqda məlumat Rusiyanın Hüquqi Şəxslərin Vahid Dövlət Reyestrində dərc olunub. Müəssisədə payların 60 faizinin "SOCAR Russia Investments Ltd" şirkətinə, 40 faizinin isə "Sberbank"ın struktur hissəsi olan "SBK Komplekt"ə məxsus olduğu bildirilir. Yeni birgə müəssisənin müflis vəziyyətdə olan Antipin neft emalı zavodunda prosessinqlə məşğul olacağı gözlənilir. Prosessinq sxeminə əsasən, neftin sahibi onu neft emalı zavoduna çatdırır, zavoda neft emalı xidmətlərinə görə ödəniş edir, sonra isə əldə olunan neft mallarını təhvil alır və onların satışını həyata keçirir.

Mənbələrdən biri "Kommersant"a bildirib ki, SOCAR iyula kimi Antipin zavodunda prosessinq işlərini başlamaq niyyətindədir. Qeyd olunur ki, yeni müəssisəni yaratmaqda məqsəd zavodun fəaliyyətində durğunluğun qarşısını almaqdır. Zavodun fəaliyyəti apreldə dayanmışdı. Səbəb kimi emal üçün neftin alınmasına kifayət qədər maliyyə vasitələrinin olmaması göstərilirdi.

"Kommersant" həmçinin qeyd edir ki, birgə müəssisə əldə etdiyi gəlirin bir hissəsini Orenburq vilayətində yataqların işlənməsinə də yatıra bilər. Məlumatda bildirilir ki, birgə müəssisənin baş direktoru Fərid Cəfərovdur. O, SOCAR-ın Rusiyada əsas strukturu olan "SOCAR Rus MMC"nin rəhbəridir.

Birgə müəssisənin nizamnamə kapitalının 10 min rubl, təqribən 260 manat olduğu göstərilir. Bütün bunlar Türkiyədən sonra Azərbaycanın Rusiyada da enerji sahəsində mühüm oyunçulardan birinə çevrilməkdə olduğunu göstərir. Xatırladaq ki, SOCAR Türkiyədə dəyəri 6,3 milyard dollar olan nəhəng STAR neft emalı zavodunun sahibidir. İndi isə qeyd edilir ki, Antipin neft emalı zavodu ilə bağlı layihə SOCAR-ın Rusiya neft sənayesinə ilk nəhəng yatırımı ola bilər. Amma görünən budur ki, Azərbaycan tərəfini Rusiyada təkcə Antipin neft emalı zavodu maraqlandırmır. Belə ki, SOCAR və Rusiyanın "Tatneft" şirkəti neft-kimya məhsullarının tədarükü barədə də saziş imzalayıb. Sənəd Bakıda keçirilən "Caspian Oil and Gas - 2019" sərgi-konfransında imzalanıb. "Tatneft" şirkətinin təmsilçisi bu xüsusda bildirib: "Şirkətimiz yataqların işlənməsi sahəsində əməkdaşlıq üçün açıqdır. Yeni tərəfdaşlar, yeni satış bazarları axtarırıq. "Tatneft" neft hasilatı sahəsində 75 illik təcrübəyə malik şirkətdir. Neftin çıxarılması və emalı sahəsində, neft sənayesi avadanlığının istehsalında, neft-kimya sahəsində və sairdə müəyyən təcrübəmiz var. Ona görə də SOCAR ilə ortaq nöqtələr axtarırıq". Onun sözlərinə görə, gələn il üçüncü ölkələrin bazarında SOCAR ilə əməkdaşlıq haqqında da danışmaq olar.

Türkiyə təcrübəsi isə göstərir ki, xarici enerji bazarında fəal iştirak Azərbaycana böyük miqdarda gəlir gətirir və digər dividendlər qazandırır. Belə görünür ki, SOCAR Türkiyə təcrübəsini Rusiyada da tətbiq etmək niyyətindədir. Yəni burada olduğu kimi, SOCAR Rusiyanın neft və qaz, həmçinin neft-kimya sferasında fəal iştirakçı olmağı düşünür. Türkiyədə STAR neft emalı zavodunun sahibi olan SOCAR qardaş ölkədə yeganə neft-kimya kompleksi olan "Petkim"də əsas səhmdardır. Hazırda SOCAR "Petkim Holding"də 51% paya malikdir. "Petkim"in qalan səhmləri isə İstanbul




Fond Birjasında dövriyyədədir. "Petkim Holding"in baş direktoru Anar Məmmədov şirkətin kifayət qədər gəlirlə işlədəyini vurğulayır: "Petkim" bu ilin ilk rübünü uğurla yekunlaşdırıb. Bu dövrdə 142 milyon Türkiyə lirəsi xalis mənfəət əldə etmişik. Bu çox gözəl nəticədir. Dünya bazarında neqativ şərtlərə baxmayaraq, bu nəticəni əldə edə bilmişik. Düşünürəm ki, bu da son illərdə həyata keçirdiyimiz optimallaşdırma işlərinin birbaşa nəticəsidir. Artıq STAR zavodundan nafta almağa başlamışıq. Bu günə qədər STAR-dan 100 min tona yaxın nafta almışıq. Təkcə qənaət deyil, naftanın keyfiyyətinin də bizim üçün çox uyğun olduğu qeyd edilməlidir. Hələ STAR zavodunun layihələndirmə mərhələsində, xüsusilə "Petkim"in ehtiyaclarını qarşılayacaq şəkildə ən effektiv nafta olması nəzərdə tutulmuşdu. STAR-ın faydası sadəcə logistika baxımından qənaətdə deyil, naftanın çox yüksək keyfiyyətinə görə istehsalımızda artım olmasında da özünü göstərir. STAR tam gücdə istehsala başladıqdan sonra ildə 1,6 milyon ton nafta alınması nəzərdə tutulur. Bu il üçün "Petkim"ə 800-900 min ton nafta alışı gözlənilir". İndi Türkiyədəki bu uğurlu təcrübənin Rusiyada da tətbiq edilməsi nəzərdə tutulur.

***Tahir TAĞIYEV***

# Davudoğludan Türkiyənin indiki hakimiyyətini səksəndirən bəyanat - Əhməd bəy nə demək istədi...

**Türkiyənin də daxil olduğu İslam dünyasının yeni bir baxışa ehtiyacı var. Bu barədə mətbuata açıqlamasında Türkiyənin sabiq baş naziri Əhməd Davudoğlu bildirib.**



*"Proseslərin Davudoğlunun xeyrinə inkişaf edəcəyini demək mümkün deyil"*

***Elçin Mirzəbəyli:** "Ola bilər ki, sabiq baş nazir bununla yeni partiyanın yaradılacağı anonsunu verir"*

Davudoğlunun sözlərinə görə, hazırda Türkiyə yüksək şüarlara ehtiyac duymur, amma gerçək fəaliyyətə ehtiyac duyur. Sabiq baş nazir, həmçinin, qeyd edib ki, yeni baxış həm də mənəvi dəyərlərin qorunması deməkdir. O hesab edir ki, təməl dəyərləri itirməmək üçün indiki dövrdə buna ehtiyac var. Bununla belə, Davudoğlu qeyd edib ki, müsəlman ölkələri öz problemlərini həll etmək üçün səylərini birləşdirməlidirlər.

O da məlumdur ki, neçə vaxtdır Türkiyədə Davudoğlunun rəhbərliyi ilə partiyanın yaradılacağı ilə bağlı iddialar var. Ara-sıra Davudoğlu dolayı da olsa çıxışlarında buna eyham vurur. Vaxtilə AKP hakimiyyətində təmsil olunmuş və baş nazir kimi mühüm postu tutmuş Əhməd Davudoğlunun yeni partiya qurmaq istəyi hakim siyasi qüvvə tərəfindən narahatlıqla qarşılanır. Hətta MHP sədri Dövlət Bağçalı belə buna tənqidi prizmadan yanaşıb. Onun sözlərinə görə, Türkiyənin yeni partiyaya ehtiyacı yoxdur.

Ancaq Davudoğlunun son açıqlaması böyük marağa səbəb olub. Bəziləri hesab edirlər ki, bu, yeni siyasi təşkilatın yaradılmasının anonsudur.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Davudoğlu "Türkiyənin yeni bir baxışa ehtiyacı var" deyərkən bununla nə demək istəyir?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəyli Davudoğlunun son açıqlamasına birmənalı prizmadan yanaşmadı:** "Türkiyəyə yeni baxış lazımdırsa, o zaman Davudoğlu hakimiyyətdə olduğu vaxt bunu ortaya qoya bilərdi. Ancaq o zaman o buna getmədi və yaxud da həyata keçirə bilmədi. Davudoğlunun "Qonşularla 0 problem" nəzəriyyəsi vardı. Ancaq, nəticə etibarilə, sözügedən yanaşma bütün qonşularla problemin yaranmasına səbəb oldu. Az qala Azərbaycanla belə bəzi problemlər yaranacaqdı. Söhbət futbol diplomatiyasından və Ermənistanla imzalanan protokollardan gedir. Qeyd edim ki, o protokollar Davudoğlunun nəzəriyyəsinin nəticəsidir. Zaman göstərdi ki, onun nəzəri proqramları praktikada bir sıra problemlərə rəvac verdi. Bu aspektdən onun fikirlərinə nikbin yanaşmıram. Digər tərəfdən, ola bilər ki, Davudoğlu bununla yeni partiyanın yaradılacağı anonsunu verir. Ancaq bu məsələdə bir sıra suallar ortaya çıxır. Məsələ ondadır ki, Davudoğlunun elektoratı AKP-nin elektoratı ilə eynidir. O mənada ki, Türkiyədə iki əsas ideoloji platforma var. Bunlardan biri sağçılardır, digəri solçular. Davudoğlunun ideoloji baxışları sağa yaxındır. O, partiya yaratsa belə, AKP elektoratının onun ardınca gedəcəyi və yaxud da böyük hissəsinin ona qoşulacağı real deyil. Çünki indiki şəraitdə Türkiyədə milliyyətçi cəbhənin Davudoğluya qoşulacağı real görünmür. Baxmayaraq ki, Davudoğlu hakim partiyadan narazıdır, bütün hallarda, proseslərin onun xeyrinə inkişaf edəcəyini demək mümkün deyil".

***Vidadi ORDAHALLI***

# İstanbul merliyi uğrunda mübarizənin ikinci mərhələsi yaxınlaşır - rəy sorğularına görə İmamoğlu yenə önə çıxır...

**İstanbulun bələdiyyə başçısının müəyyən edilməsinə çox az vaxt qaldığı dönəmdə Türkiyənin ən məşhur sosial sorğu mərkəzləri öz araşdırmalarının və keçirdikləri sorğuların nəticələrini açıqlayıbar. Nəticələrdə şəxsi keyfiyyətləri və seçici simpatiyası məsələsində CHP-nin namizədi Əkrəm İmamoğlunun AKP-nin namizədi olan Binəli Yıldırımı qabaqladığı müşahidə olunur.**




Hətta AKP-yə yaxınlığı ilə tanınan bəzi məşhur reytinq şirkətləri belə İmamoğlunun Yıldırımı üstələdiyini bildirirlər.

Doğrudur, müstəqil sorğu şirkətləri İmamoğlunun sabiq baş naziri 4-5 faizlik səs fərqi ilə qabaqladığını bildirirlərsə, məsələn, hakim partiyaya yaxın olduğu deyilən "MAK Danışmanlık Araştırma"ya görə, CHP-nin namizədi cəmi 2 faizlik üstünlüklə öndədir.

"MAK"ın açıqladığı sorğu nəticələrinə görə, seçicilərin 50.3 faizi İmamoğluna, 48.2 faizi isə Binəli Yıldırıma səs verməyə hazırlaşır. Ancaq, məsələn, digər nüfuzlu sorğu şirkəti olan "Optimar" İmamoğluna 52, Yıldırıma isə 48 faiz səs veriləcəyini proqnozlaşdırır. Onu da qeyd edək ki, həmin bu şirkətlər birinci turdan, yəni 31 mart seçkisindən əvvəl Yıldırımın qalib gələcəyini proqnozlaşdırırdılar.

"MAK"ın sorğusu təkcə seçicilərin birbaşa olaraq İstanbulda hansı namizədə səs verəcəklərilə bağlı olmayıb. Məsələn, partiyalarla əlaqədar sorğunun nəticələrinə görə, İstanbulda seçicilərin 40 faizi AKP-yə, 28 faizi isə CHP-yə səs verməyə hazır olduqlarını bildiriblər. MHP və İYİ Partiyanın hərəsinə 8, HDP-yə isə 11 faiz seçici səs verməyə hazırdır. Göründüyü kimi, partiya olaraq AKP CHP-ni üstələsə də, bələdiyyə başçısına namizəd sarıdan ortaya fərqli nəticə çıxır. Bu o deməkdir ki, İmamoğluna səs verənlər arasında AKP elektoratı da var. Hətta MHP-lilərin də bir qisminin İmamoğlunu dəstəklədiyi bildirilir.

Sorğu digər bir maraqlı məqamı da ortaya çıxarıb. Nəticələr göstərir ki, birinci turda səs verənlərin 13 faizi ikinci turda artıq digər namizədə səs verməyə hazırlaşır. Bu, vəziyyəti bir qədər də qarışdırır və müşahidəçilər fikrini dəyişən seçicilərin məhz Yıldırıma səs vermiş AKP-lilər olduğu qənaətindədirlər. Belə ki, paralel olaraq, Türkiyə MSK-sının 31 mart seçkisinin nəticələrinin ləğvinə dair qərarına münasibət bildirən seçicilərin böyük əksəriyyəti bu qərarı ədalətsiz hesab ediblər. Rəyi soruşulanların yalnız 43 faizi qərara haqq qazandırıblar.

İstanbul bələdiyyə seçkilərinin ikinci turu ərəfəsində İmamoğlunun aşkar üstünlüyü nə ilə bağlıdır və bu rəqəmlər rəsmi nəticələrdə öz əksini tapa bilərmi? **Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, İmamoğlunun qalib gəlmə şanslarını şərtləndirən bir sıra amillər var və bu təkcə onun şəxsinə, yaxud partiyasına olan rəğbətlə bağlı deyil:** "Doğrudur, İmamoğlu daha gənc, çevik siyasətçidir, dünyəvilik tərəfdarı olan bir partiyanın namizədidir və bu səbəbdən dünyəvi düşüncəli seçicilərin rəğbətini qazanmış ola bilər və s. Heç şübhəsiz, bu amillərin rolu var. Lakin istənilən iqtidar partiyası, hakimiyyətdə olan qüvvənin nüfuzunun azalma dövrü, günəşinin qürub çağı olur. Bu, istənilən dövrdə, istənilən quruluşda hakimiyyətin dəyişməz qanunauyğunluğudur. Bu gün Türkiyədə AKP həmin dövrə qədəm qoyub. Artıq insanlar dəyişiklik istəyir, yeniliyin hər şeyi daha yaxşıya doğru dəyişəcəyinə ümid edir və s. İmamoğlu ilk seçkidə ona görə qalib gəldi ki, həm İstanbul əhalisi 2002-ci ildən bəri hakimiyyətdə olan AKP-dən sanki yorulub və yenilik istəyirdi, həm də AK partinin özündə bir arxayınçılıq yaranmışdı. CHP və FETÖ-nün seçkiyə hiylə qatdığı AKP tərəfindən iddia kimi irəli sürülürsə, deməli, burada AKP-nin özünün də səhlənkarlığı rol oynayıb ki, qarşı tərəfə belə bir imkan verilib. Ərdoğan ilk olaraq ətrafına baxmalı, bu komanda ilə yola davam edib-etməyəcəyinə qərar verməlidir. AKP-nin bir çox nüfuzlu qurucu üzvləri oradan uzaqlaşıb və hətta Ərdoğanın siyasi rəqibinə çevriliblər, yeni partiya qurmaq planları müzakirə edilir. Deməli, AK partiyanın İstanbulu uduzması təsadüfi deyildi. Onsuz da son illərdə Türkiyədə referendum, prezident seçkiləri seçicilərin tən yarıya bölünməsi ilə müşahidə olunurdu və İstanbul seçkiləri də bunu bir daha təsdiq etdi. Səs nisbəti AK parti və qeyriləri nisbətində yarıbayarı bölünürdü. Ötən il lirənin kəskin ucuzlaşması əhali arasında panika yaratmışdı və yəqin ki, bu qorxu hələ də qalır. Ərdoğanın ABŞ-la ultimatum dilində danışması, münasibətlərin həll də yoluna qoyulmaması əhalinin iqtisadi tərəqqi, maddi rifah arzularına kölgə salır və təşviş yaradır. Mümkündür ki, insanlar CHP namizədinin qalib gəlməsini həm də əvvəlki dövrlərdə olduğu kimi, Qərblə münasibətləri yaxşılaşdırma, ABŞ-ın Türkiyəyə təzyiqindən, onun iqtisadi hücumlarından çıxış yolu kimi görmüş ola bilərlər. İstanbul əhalisi Anadolu hissəsinə nisbətən daha savadlı, dünyəvi düşüncəlidir, siyasi baxımdan daha yetkindir və bununla Ərdoğanın anti-Qərb siyasətinə etiraz etmiş də ola bilərlər".

Politoloqun sözlərinə görə, artıq Ərdoğandan sonra belə bir presedent yaranıb ki, İstanbul bələdiyyə başkanı Türkiyənin gələcək prezidenti postuna potensial namizəddir: "Bu baxımdan İmamoğluna səs verən seçicilər həm də Türkiyənin gələcək prezidentinə, ölkəni yenidən dünyəviliyə qaytaracaq, ABŞ və digər müttəfiqlərlə yanmış körpüləri bərpa edə biləcək siyasətçiyə səs verdiklərini düşünmüş ola bilərlər".

***Məhəmmədəli QƏRİBLİ***

### Fransa Məhkəməsi erməni lobbisinin on illərlə milyonlar tökdüyü layihəni alt-üst etdi

# Separatçı "DQR" şəhərlərini fransızlarla süni qardaşlaşdırma cəhdlərinə ağır məhkəmə zərbəsi...

**Məlum olduğu kimi, mayın 30-da Fransanın Val d'Oise Departamentinin İnzibati Məhkəməsi Arnuvil şəhəri ilə Dağlıq Qarabağdakı erməni separatçıları arasında imzalanan "Dostluq Xartiyası"nı ləğv edib. Sözügedən "sənəd" Fransanın Arnuvil şəhərinin meri Paskal Dol ilə hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın Xocavənd rayonunun Şeher yaşayış məntəqəsinin separatçı rəhbəri arasında imzalanmışdı.**

Dağlıq Qarabağa qanunsuz səfər edərək orada separatçılarla görüşən və "sənəd" imzalayan merə qarşı ittiham Fransa hökuməti tərəfindən ölkənin regionları ilə əməkdaşlığa dair qanunun pozulması maddəsi ilə irəli sürülüb. Şikayətə baxan Fransanın Val d'Oise Departamentinin Cergy-Pontoise İnzibati Məhkəməsi fransalı merin əleyhinə qərar verib.

Məlumat üçün qeyd edək ki, 2018-ci ilin oktyabrında Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa qanunsuz səfər edib və separatçılarla bir sıra görüşlər keçiriblər. Bundan sonra Fransanın Bakıdakı səfiri Oreliya Buşe Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Ona Fransa nümayəndələrinin Azərbaycanın maraqlarına, onun suverenliyi və ərazi bütövlüyünə toxunan bir sıra addımları, o cümlədən bu yaxınlarda Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri tərəfindən edilən qanunsuz səfərlərlə bağlı rəsmi etiraz bildirilib.

Fransa nümayəndələrinin bu kimi addımlarına hüquqi və siyasi qiymətlər verilib, Fransa hökuməti bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görməyə çağırılıb və qarşı tərəfə Azərbaycan XİN-in rəsmi notası təqdim olunub.

Ondan sonra gedən proseslər, göründüyü kimi, Azərbaycanın xeyrinə nəticələndi və Fransa məhkəməsi ədalətli qərar çıxardı.

Fransa İnzibati Məhkəməsinin qətnaməsi bir neçə cəhətdən çox əhəmiyyətli tqrixi hadisədir. Ermənilər separatçı rejimin işğal altında saxladığı şəhərlərimizi Fransa şəhərləri ilə qardaşlaşdırmaqla qondarma "DQR"-i tanıtmağa çalışıblar. Bu mənada, məhkəmə qərarı erməni lobbisinə və Ermənistana tutarlı zərbədir. Uzun illərdi ki, Azərbaycan diplomatiyası belə hərəkətlərin beynəlxalq qanunlara, münaqişənin həlli prinsiplərinə, Fransanın öz qanunlarına və Azərbaycanla dostluq ruhuna zidd olduğunu sübut etməyə çalışırdı. Hazırkı qərar Azərbaycan diplomatiyasının səylərinin şəksiz nəticəsi sayıla bilər. Məhkəmə qərarı Fransada erməni lobbisinə sarsıdıcı zərbədir və qondarma "DQR"-in digər şəhərləri ilə də süni "qardaşlaşma" müqavilələrinin hamısının ləğvinə perspektiv açdı. Hadisə maraqlı bir presedent nümunədir. Bu qərar Fransa hakimiyyətində Azərbaycanla dostluq təmayülünün çox güclü olduğunu ortaya qoydu və separatçı rejimin qanunsuz şəkildə özününküləşdirdiyi şəhərlərin Fransa şəhərləri ilə növbəti qardaşlaşma sazişlərinin, demək olar ki, qarşısını aldı.

Xatırladaq ki, Fransanın özündə də bu saxta qardaşlıq xartiyalarına etiraz edənlər var və olub. Məsələn, Fransa Parlamentinin Fransa-Azərbaycan dostluq qrupunun üzvü Jan-Lük Reitzer birmənalı şəkildə Dağlıq Qarabağın hazırda işğal olunmuş ərazi olduğunu bildirir və bu əlaqələrinqəti əleyhinə olduğunu deyir:"Beynəlxalq hüququn qanunları var və onlara riayət etməmiz gərəkdir. Fransa Xarici İşlər nazirinə məktub ünvanlayaraq Fransanın bir sıra şəhərlərinin başçılarının Dağlıq Qarabağ bölgəsinin şəhərləri ilə əlaqələr qurduqları, səfərlər etdikləri, dostluq xartiyaları imzaladıqları barədə məlumatlandırmışam və bu əlaqələrin Fransa qanunlarına zidd olduğunu vurğulamışam. Bu yaxınlarda (2018-ci ilin oktyabrı-red) Fransanın Sant-



## Məhərrəm Zülfüqarlı: "Bu, ermənilər üçün gözlənilməz zərbə oldu"

Etyen (Saint-Etienne) şəhəri ilə Dağlıq Qarabağda yerləşən şəhərlərdən biri ilə əlaqələr qurulub. Mən Sant-

> *"Məlum olur ki, Fransa ermənilərlə yaxın olsa da, bu ölkənin dövlət maraqları daha vacib əhəmiyyət kəsb edir"*

Etyen şəhərinin merinə məktub yazaraq bunun beynəlxalq hüquq normalarına və Fransa Xarici İşlər Nazirliyinin qərarlarına zidd olduğunu bildirmişəm. Məktubuma Fransa Xarici işlər naziri Jan-İv Lö Dryanın mənim məktubuma cavablandıraraq beynəlxalq hüququn qanunlarını pozan bu cür ikitərəfli əlaqələrin məsləhət görülmədiyini təsdiqləyən məktubunun surətini də əlavə etmişəm. Hələlik, heç bir cavab almamışam. Sant-Etyen şəhərinin merinə göndərdiyim məktubumun surətini bir sıra orqanlara da göndərmişəm ki, qoy bilsinlər parlamentarilər beynəlxalq ictimaiyyət tərəfindən tanınmamış ərazilərlə əlaqələr qurmaqla digər ölkələrin suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən davranışlara yol verən bir sıra şəhər rəhbərlərinə qayda-qanunu xatırladır".

Daha bir Fransa rəsmisi, Fransa Senatında Fransa-Qafqaz dostluq qrupunun, Xarici işlər, müdafiə və silahlı qüvvələr üzrə Komissiyanın üzvü, ölkənin keçmiş müdafiə və ədliyyə üzrə dövlət katibi, senator Jan-Mari Bokel deyir ki, vaxtilə Müluz aqlomerasiyasının prezidenti olduğu zamanlar özü də Azərbaycanın şəhərlərindən biri ilə dostluq xartiyası imzalayıb:"Mən Azərbaycanın dostluyam. Əslində istənilən şəhər, hətta ən konfliktual yerlərlə belə dostluq xartiyaları imzalaya bilər. Bu qanunsuzluq deyil. Bu bir siyasi seçimdir. Lakin mənim nəzərimdə, Dağlıq Qarabağın şəhər yaxud kəndləri ilə belə dostluq xartiyaların imzalanması düzgün deyil. Çünki bu zaman səfərlər, birgə bəyannamələr, bayraqlar vasitəsilə bu, həmin ərazinin tanınması kimi başa düşülə bilər ki, bu da düzgün deyil. Çünki bu ərazi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayıb. Mən Azərbaycanın dostu kimi deyirəm ki, belə dostluq xartiyaları qanunsuz deyil, lakin müəmmalıdır. Deyərdim ki, Qarabağ ərazisindəki şəhərlərlə dostluq xartiyalarının imzalanması bir mübarizə üsuludur ki, bu da, yuxarıda toxunduğum kimi, diaspora məsələsinə gətirib çıxarır. Bir daha vurğulamaq istəyirəm ki, bu şəxslər "malı-mala" qatmamalıdır".

O baxımdan bunun əhəmiyyəti necə şərh olunur?

**Məsələyə münasibət bildirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu, ermənilər üçün gözlənilməz zərbə oldu:** "O mənada ki, onlar Fransanın Ermənistanla tarixən yaxın olduğunu nəzərə alıb bunu gözləmirdilər. Ancaq məlum olur ki, Fransa ermənilərlə yaxın olsa da, bu ölkənin dövlət maraqları daha vacib əhəmiyyət kəsb edir. Separatçı qurumun bu minvalla təbliği alınmadı. Azərbaycan müstəqillik əldə etdikdən sonra, zamanla Avropa ölkələri ilə əlaqələri gücləndirir. Son 5 ildə isə bu əlaqələr daha da güclənib. Azərbaycan gücləndikcə, Avropada təsir imkanları genişlənir. Azərbaycanın Fransa ilə də əlaqələri genişlənir. Fransa hakimiyyətindəki müəyyən dairələr Azərbaycanın Cənubi Qafqazda rolunu nəzərə alır. Digər tərəfdən, mən özüm bir neçə dəfə Avropa ölkələrinin parlamentində olmuşam. Hətta Belçika parlamentində Qarabağ dinləmələrində iştirak etmişəm. Gəldiyim qənaət odur ki, diplomatik fəaliyyətimizi daha da artırsaq, tərəfdarlarımızın sayı artacaq.

**Düzdür, Avropada xristian amili, erməni təəssübkeşliyi var, amma hər bir dövlətin öz maraqları var. Azərbaycan da Avropa ölkələrinin, o cümlədən Fransanın maraq çərçivəsindədir. İstənilən halda, Fransa məhkəməsinin qərarı Azərbaycan diplomatiyasının uğurudur. Səylərimizi artırsaq, bu gedişlə ermənilərin xeyrinə çıxarılan digər siyasi qərarlar da ləğv edilə bilər".**

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Azərbaycanın yeni silah və texnikası barədə Ermənistanda dərin müzakirələr - Aprel döyüşlərinin parlament təhqiqatına müqavimət var

**Bu gün işğalçı Ermənistanda böyük narahatlıqla qarşılanan məqamlardan biri də Azərbaycanın ordusuna ən son hərbi texnikaların alışını həyata keçirməsi, həmçinin bu istiqamətdə yerli istehsalı artırmasıdır. Ölkəmizdə qeyd edilən sepkidə görülən işlərin nəticəsidir ki, indi ordumuzda Ermənistanın yaxın onilliklərdə ala bilməyəcəyi çoxsaylı müasir əsgəri texnika mövcuddur.**

Özü də belə texnikaların Ermənistanın müttəfiqlərindən, bu ölkə ilə eyni təşkilatlarda yer alan dövlətlərdən alınması İrəvanda olduqca böyük qıcıq yaradır.

Belə bir vaxtda Ermənistanda narahatlıq mənbəyinə çevrilən məqamlardan biri də Azərbaycanın Rusiyadan yeni zirehli transpartyorlar almasıdır. BMT-nin adi silahlar reyestrində 2018-ci ildə ixrac edilən silahlar haqqında Rusiyanın təqdim etdiyi hesabatından məlum olur ki, həmin il Rusiya Azərbaycana 40 ədəd zirehli transportyor tədarük edib. Sənəddə texnikanın sinfini xarakterizə edən ümumi ad "zirehli döyüş maşını" olaraq qeyd edilib. Söhbət burada BTR-82A zirehli transpartyorlarından gedir. Erməni tərəfi burada həm Rusiyanın Azərbaycana hərbi texnika satışını davam etdirməsindən, həm də Azərbaycanın onlarda olmayan texnikalara sahib olmasından ciddi narahatlıq keçirir. Məsələn, erməni politoloq Hayk Xaçikyan qeyd olunan xüsusda bildirir: "Bu texnikaların alınması Azərbaycan ordusunun çevik, bir yerdən digər yerə yerdəyişmə bacarıqlarının inkişafına xidmət edir".

Onun sözlərinə görə, bu tədarük barədə müqavilə bir müddət öncə imzalanıb və 2017-2018-ci illərdə də bənzər tədarüklər olub: "Konkret hansı texnikanın tədarük edildiyinin adı qeyd edilmir, lakin birmənalı şəkildə aydındır ki, söhbət hansı texnikalardan gedir. Söhbət 40 ədəd BTR-82A-lardan gedir. Bu, Azərbaycan ordusunun çevik, bir yerdən digər yerə yerdəyişməsi bacarıqlarının inkişafına xidmət edir. Ermənistanın belə bir zirehli texnikası yoxdur". Xaçikyan əlavə edib ki, Rusiya və Azərbaycan arasında razılaşma əsasında bundan əvvəl ümumi dəyəri 120 milyon dollar olan 85 ədəd döyüş maşını tədarük edilib.

Məlumat üçün bildirək ki, BTR-82A zirehli transportyorları 2013-cü ildən Azərbaycan ordusunun silahlanmasına daxildir. Bu zirehli maşınlar ayrı-ayrı vaxtlarda keçirilən təlimlərdə, o cümlədən 2016-cı ilin aprel ayında cəbhədə baş vermiş döyüşlərdə istifadə olunub. BTR-82A zirehli transportyorların əvvəlki partiyalarını istifadə edən Azərbaycan hərbçilərinin tələbi və təklifi ilə maşınlarda istehsalçı müəssisə tərəfindən bəzi təkmilləşdirmələr aparılıb. Nəticədə zirehli transportyorun döyüş imkanları yüksəldilib. Rusiyanın "Hərbi Sənaye Kompleksi" müəssisəsi tərəfindən istehsal olunan BTR-82A zirehli transpotyoru 1986-cı ildən silahlanmada yer alan BTR-80 və BTR-80A tipli zirehli transportyorların dərin müasirləşdirilmiş versiyasıdır. Lakin BTR-82A öz sələflərini döyüş və texniki xüsusiyyətlərinə görə praktik olaraq iki dəfədən çox üstələyir.

BTR-82A-nı özündən əvvəlki zirehli transportyorlardan fərqləndirən cəhətlərdən ən əsası isə onun daha güclü mühərriklə təmin olunması və zirehin gücləndirilməsidir. Zirehli transportyorun məsafədən idarə olunan döyüş modulunda əsas silah kimi 30 millimetrlik 2A72 avtomat top və ikinci silah kimi 7.62 millimetrlik PKTM pulemyotu daxildir. Unifikasiya edilmiş modulda yerli və xarici istehsal olan digər artilleriya silahları da qurula bilər. Döyüş modulunda müasir müşahidə və nişangah sistemləri tətbiq olunub. Əvvəlki nəsil zirehli transportyorlardan fərqli olaraq BTR-82A-a kondisioner, beşinci nəsil müasir rabitə vasitələri və "Trona-1" topoqrafiya səmt sistemi ilə təchiz edilib. Azərbaycan ordusunun ixtiyarında bu qəbildən olan texnikanın sayının artması isə təbii olaraq Ermənistanca ciddi təşviş doğurur. Çünki bütün bunlar Dağlıq Qarabağ münaqişəsi hərbi müstəvidə həll olunacağı təqdirdə ölkəmizin üstünlüyünün əhəmiyyətli dərəcədə artmasına xidmət edir. Erməni mediası yazır ki, yaranmış durumda Ermənistan ordusunda xaosun böyüməsi Azərbaycanın üstünlüyünü artıran digər faktor qismində çıxış edir. Ermənistanın sabiq müdafiə naziri, ictimai şuranın sədri Vazgen Manukyan da bildirir ki, Azərbaycandan fərqli olaraq, erməni ordusunda müsbət heç nə gözə dəymir və bu gedişlə vəziyyətin daha da pisləşməsi gözlənir. Konkret misal kimi o diqqətə çatdırır ki, 2016-cı ildə baş verən döyüşlərin detallarının araşdırılması üçün parlamentin istintaq komissiyasının yaradılması təhlükəlidir. Onun sözlərinə görə, korrupsiyaya qarşı mübarizə aparmaqla hansısa şeyləri dağıtmaq olmaz: "İlk növbədə deməliyəm ki, parlament ordunun işlərinə qarışmamalıdır. Keçən aylar ərzində baş verənləri gördükdən sonra əminəm ki, ordunun işlərinə sonadək qarışacaqlar. Müharibə məsələlərinin parlamentdə müzakirəsinin əleyhinəyəm. 2016-cı ildə baş verən döyüşlərin detallarının araşdırılması üçün parlamentin istintaq komissiyasının yaradılması təhlükəlidir. Doğrudur, orduda korrupsiya faktları mövcuddur və mən bunu inkar edə bilmərəm. Lakin korrupsiyaya qarşı mübarizə aparmaqla hansısa şeyləri dağıtmaq olmaz. Mən Ermənistan ordusunun bu şəkildə dağılmasını arzu etməzdim".

Xatırladaq ki, mayın 31-də erməni parlamentinin sədri Ararat Mirzoyan bəyan edib ki, 2016-cı ilin aprel döyüşlərinin detallarının araşdırılması üzrə istintaq komissiyası yaradılıb. Erməni parlamentinin əsasnaməsinə görə, istintaq komissiyasına parlamentin müdafiə və təhlükəsizlik daimi komissiyasının sədri Andranik Koçeryan rəhbərlik etməlidir. Bundan öncə isə Ermənistan baş naziri Nikol Paşinyan məhkəmə hüquq sistemi haqqında çıxışı zamanı qeyd edib ki, 2016-cı ilin aprel döyüşlərinin detallarının araşdırılması üzrə parlament komissiyasının yaradılması və hər kəsi narahat edən bir sıra sualların cavablarının verilməsinin zamanı yetişib. Xatırladaq ki, aprel döyüşləri Ermənistan ordusunda təchizat, komandanlıq, hərbi hissələr arasında əlaqə və digər sahələrdə ciddi problemləri ortaya çıxarıb. Bu faktlara görə Müdafiə Nazirliyinin o vaxtkı rəhbərliyinə daxil olan şəxslərin, demək olar ki, hamısı vəzifəsini itirib. Aprel döyüşlərinin yenidən araşdırılması erməni ordusunda yeni həbslərin olmasını istisna etmir. Bütün bunlara nəzər salan "İravnuk" qəzeti yazır: "Azərbaycan 2016-cı ilin aprelindən sonra ordusunu daha da gücləndirir, yeni texnikaların alışını həyata keçirir. Bizdə isə o vaxtdan indiyə qədər yaxşıya doğru dəyişən nəsə yoxdur. İndi də yeni istintaqla ordunun daha da sarsıdılmasına hazırlıq gedir. Belə olan halda yeni aprel döyüşləri ordumuz üçün yeni sərt zərbə olacaq və Azərbaycan daha böyük ərazilər üzrində nəzarəti qaytaracaq. Özü də nəzərə almaq lazımdır ki, Bakı savaşa intensiv hazırlıq görür".

Ermənistanın "Joğovurd" nəşri də məsələyə diqqət yetirərək yazır ki, Azərbaycan yeni texnikalarla ordusunu gücləndirdiyi halda, erməni tərəfi əlində olanları da məhv edir: "Bunun təsdiqini göstərən dəhşətli faktın üstü bu günlərdə açılıb. Belə ki, Ermənistan ordusunun zabiti 11 döyüş avtomobilindən benzin çəkərək onların yanacaq çəninə su töküb". Nəşrin məlumatına görə, yanacaq çəninə su tökülən 11 döyüş avtomobili texniki problemlərlə üzləşib və onların istismar edilməməsinə qərar verilib: "Ermənistan Respublikasının hüquq-mühafizə orqanları bir neçə gün bundan öncə Müdafiə Nazirliyinin hərbi hissələrindən birində əlamətdar hadisə aşkarlayıb. Hüquq-mühafizə orqanları Ermənistan Müdafiə Nazirliyinin hərbi hissələrindən birində yoxlamalar həyata keçirərkən ortaya çıxıb ki, həmin hərbi hissənin zabiti 11 döyüş avtomobilindən benzin çəkib və onların yanacaq çəninə su töküb. Bundan başqa, məlum olub ki, bütün bunların nəticəsində 11 döyüş avtomobili texniki problemlərlə üzləşib və onların istismar edilməməsinə qərar verilib. Bizdə olan məlumatlara görə, Ermənistan İstintaq Komitəsindən bildirilib ki, hadisə ilə bağlı cinayət işi açılıb. İstintaq davam etdirilir. Elə istintaqla məlum olub ki, Ermənistanda "N" saylı hərbi hissənin batareyasının baş zabiti, baş leytenant A.Qambaryan hərbi hissənin qarovul xidməti tərkibində qarovul rəisi kimi xidmətə cəlb olunub. Oğurluq etmək məqsədilə məcburi xidmət hərbi qulluqçuları R. Saruxanyan və V.Abrahamyanla birgə hərbi hissənin qarovul məntəqəsinə daxil olub, rəsmi mövqeyindən sui-istifadə edərək, qarovul xidmətini yerinə yetirən məcburi xidmət hərbi qulluqçusu R.Hovhanisyana onların işinə mane olmaması və müdaxilə etməməsi barəsində göstəriş verib. Bundan sonra qarovul rəisi qarovul xidməti qaydalarını pozaraq qarovul xidmətinin yerinə yetirildiyi ərazidən uzaqlaşıb. Daha sonra baş leytenant Qambaryan əsgərlər R. Saruxanyan və V.Abrahamyanla öncədən razılığa gələrək, hərbi hissənin döyüş maşınları üçün dayanacaq olaraq istifadə edilən tikililərə daxil olublar. Həmin tikililərdə saxlanılan 11 ədəd döyüş avtomobilinin yanacaq çənlərindən rezin boru vasitəsilə gizli yolla ümumi həcmi 240 litr dizel yanacağı ələ keçiriblər. Bunların üstü açılıb. Amma bunun nə faydası olacaq? Ordumuzda texnika çatışmazlığı olduğu halda daha 11 döyüş avtomobili sıradan çıxarıldı. Bunlar isə Azərbaycanla mümkün döyüşlərin nəticəsinə təsir edir".

Bütün bu qeyd edilənlər çox aydın şəkildə nümayiş etdirir ki, ordunun təminatı və döyüş qabiliyyəti baxımından Azərbaycanla Ermənistan arasında fərq əvvəlki kimi artmaqda davam edir. Məhz bu şəraitdə Qarabağ konfliktinin güc müstəvisində həlli Ermənistan üçün kifayət qədər ağır zərbə olacaq. Azərbaycanın malik olduğu hərbi texnikanı işə salması təkcə zəbt edilmiş ərazilərimizdə yox, elə Ermənistanın özündə də düşməni böyük itkilərə vadar edəcək. Özü də bunu Ermənistanın özündə yaxşı başa düşənlərin sayı heç də az deyil.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məlum olduğu kimi, problemli kreditlərin həllinə dair Prezident fərmanının icrası başa çatıb. Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən həyata keçirilən proses başa çatsa da, bu sahədə vətəndaşların üzləşdikləri problemlər hələ də tam olaraq öz həllini tapmayıb.**

# Maliyyə Palatası kompensasiyaları qüsursuz payladı, bankların ödənişlərindən narazılıqlar hələ araşdırılmayıb - "Unibank" kimi...



*”... haqlı tərəfi ortaya çıxarmalıdır”*

***Ruslan Atakişiyev:** ”Vətəndaşlar bankların onlara yaratdıqları problemlərin araşdırılması üçün Mərkəzi Banka və Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etməlidirlər”*

Kompensasiya alacaq vətəndaşların əsas probleminin banklarla olduğu məlumdur. Hətta bəzi vətəndaşlar banklar tərəfindən onlara qarşı edilən haqsızlıqlarla bağlı dəfələrlə redaksiyamıza da üz tutublar. Vətəndaşlar şikayət edirlər ki, bəzi banklar tərəfindən onlara ödənilməli olan və qanunla müəyyən edilmiş məbləği tam şəkildə ödəməyiblər. Hər bir bank bunun səbəbini müxtəlif cür izah edir. Məlumdur ki, problemli kreditlərin ödənilməsi ilə bağlı vətəndaşlara ən çox narahatlığı "Unibank" yaradıb. Məlumdur ki, sözügedən bank qanunsuz olaraq müştəriləri incidib və onlara təyin olunan kredit məbləğindən artıq ödəniş tələb edib. Vətəndaşlar bildirirlər ki, onlar kredit ödənişini tam şəkildə bitirsələr də, bank israrla əlavə aylıq ödəniş tələb edirdi. Qeyd edirdi ki, vətəndaş aylıq məbləği ödəməsə, bu vəsait onun kompensasiya məbləğindən çıxılacaq.

Ciddi narazılıqlara, çoxsaylı şikayətə baxmayaraq, banklar elə də etdilər, hesabladıqları artıq məbləği vətəndaşlara ödəniləcək vəsaitdən çıxdılar.

Problemli kreditlərin ödənişləri başa çatsa da, hələ də bankların problem yaşatdığı vətəndaşların şikayətləri araşdırılmayıb. Hətta bununla bağlı vətəndaşlar Maliyyə Bazarlarına Nəzarət Palatasına da müraciət ediblər, lakin hələ də bu məsələnin çözülməsi istiqamətində hər hansı bir addım atılmayıb.

Ekspertlər qeyd edirlər ki, bankların vətəndaşlara qarşı etdikləri qanunsuzluqlarla bağlı məsələnin araşdırılması olduqca vacibdir. Mütəxəssislər hesab edirlər ki, banklarda bu kimi hallarla üzləşən vətəndaşlar yenidən Maliyyə Bazarlarına Nəzarət Palatasının yanında formalaşdırılan Apelyasiya Komissiyasına müraciət edə bilərlər, eyni zamanda, onlar digər məhkəmə instansiyalarına üz tutmalıdırlar.

Qeyd edilir ki, qaydalara əsasən, apelyasiya müraciətlərinə 30 iş günü ərzində cavab verilməlidir. Belə ki, müraciətdən sonra iş günlərinin sayını hesablamaqla komissiyanın nə zaman müraciəti cavablandıracağını müəyyənləşdirmək olar.

**İqtisadçı-ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə bildirdi ki, vətəndaşlara problem yaradan banklarla bağlı şikayətlərin tam olaraq araşdırılması tələb olunur.** "Qeyd edim ki, ümumiyyətlə, bir neçə il əvvəl Mərkəzi Bank tərəfindən kommersiya banklarının göstərdiyi xidmətlə, eyni zamanda, ərizə və şikayətlərə baxılması ilə bağlı bir təlimat hazırlanmışdı. Həmin təlimat qüvvədədir. Banklar gün, həftə ərzində vətəndaşların şikayətləri ilə bağlı hesabatlar verməyə borcludurlar. Vətəndaşlar bankların onlara yaratdıqları problemlərin araşdırılması üçün Mərkəzi Banka və Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etməlidirlər. O ki, qaldı problemli kreditlərin ödənilməsi məsələsində narazı vətəndaşların banklarda müəyyən problemlərlə üzləşməsinə, bu məsələ ətraflı araşdırılmalıdır. Bəzən olur ki, banklar müştərinin qaldırdığı problemi əsassız sayır, bu halda problem məhkəmə yolu ilə öz həllini tapmalıdır.

**Müraciətlərin hər birinə diqqətlə yanaşılmalı və hansı tərəfin haqlı olduğunu ortaya çıxarmaq üçün araşdırmalar aparılmalıdır. Hesab edirəm ki, palata bu barədə vətəndaş şikayətlərini dərindən araşdırmalı, haqlı tərəfi ortaya çıxarmalıdır.**

Bilirsiniz ki, bu kimi məsələlərin ən optimal həlli yolu maliyyə məsələləri ilə bağlı problemlə üzləşən vətəndaşın apelyasiya şikayəti verməsidir".

*İradə SARIYEVA*

**Təcrübə göstərir ki, əmək haqlarının qeyri-leqal, yeni zərflərdə verilməsi hallarını birbaşa yolla, yeni sanksiyaların, inzibati cəzaların tətbiqi ilə tam şəkildə aradan qaldırmaq mümkün deyil. Beynəlxalq təcrübədə, əsasən, vergi savadlılığının artırılması, əməkhaqqının tam şəkildə bəyan edilməsinin faydalarının təbliği geniş yayılıb.**

# Əməkhaqqınızı şəffaf etsəniz, nə əldə edə bilərsiniz...




İctimaiyyətin ödənilmiş vergilərin qarşılığında əldə edəcəyi üstünlüklər, həmçinin vergilərin xərcləndiyi sahələrə dair mütəmadi məlumatlandırılması bu sahədə mühüm rol oynayır.

Latviya, Litva, Estoniya və digər qabaqcıl postsovet ölkələrində maarifləndirmə tədbirləri müxtəlif yollarla aparılır. Məsələn, vergi orqanı muzdla çalışan işçilərə ödədikləri verginin xərcləndiyi sahələrə dair məktublar göndərir. Yol kənarlarında, xəstəxanalarda, ictimai yerlərdə "Sizin verginiz bura xərclənmişdir" sözləri qeyd olunur. Bu zaman insanlar ölkənin ümumi inkişafında payları olduğunu əyani görür və qürur hissi keçirir. Vergi ödəyicilərinin borcları və vergi ödənişləri barədə məlumatlar ictimaiyyətə elan olunur. Məktəbliləri, tələbə və gəncləri vergi işçilərinin fəaliyyəti ilə tanış etmək, "kölgə iqtisadiyyatı"nın vurduğu zərərlər barədə onları məlumatlandırmaq, maarifləndirmək üçün müxtəlif proqramlar və sosial layihələr təşkil olunur.

Azərbaycan Respublikası Vergilər Nazirliyi 2018-ci ildən başlayaraq qeyri-legal fəaliyyətdən legal fəaliyyətə tədricən keçidi təmin etmək üçün vergi ödəyicilərinə düzgün yol göstərməyə, dəstək olmağa daim hazır olduğunu elan edib. Qarşıda duran prioritet vəzifə "kölgə iqtisadiyyatı"nın və ikili mühasibatlığın qarşısını almaqdır. Burada söhbət vergi orqanı tərəfindən yalnız sərt inzibati nəzarət mexanizmlərinin tətbiqindən getmir, əsas məqsəd gəlirlərin leqallaşdırılması, vergi orqanlarından gizlədilən əmək haqlarının, dövriyyələrin üzə çıxarılması, xüsusən də sahibkarları leqal işləməyin üstünlüyünə və faydalılığına inandırmaqdır.

Vergi orqanları qeyri-rəsmi məşğulluğun və qanunsuz sahibkarlığın qarşısının alınması istiqamətində bu gün bütün resursları səfərbər edib. Biznesin fəaliyyətinin, xüsusilə qeyri-rəsmi məşğulluğun, işçilərə verilən əmək haqlarının tam leqallaşdırılması, gəlirlərin düzgün bəyan edilməsi, ikili mühasibatlığın aradan qaldırılması, hesabatlılığın şəffaflaşdırılması istiqamətində bütün qanunvericilik və inzibatçılıq alətləri işə salınıb. Birmənalı şəkildə qəbul olunub ki, "kölgə iqtisadiyyatı" həm dövlətin iqtisadi gücünün artırılmasına, həm də vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına mane olan başlıca amildir.

Bir çox ekspertlər bu fikirdədirlər ki, Azərbaycanda "kölgə iqtisadiyyatı"nın əsas payını gizli məşğulluq təşkil edir. Əslində, gizli məşğulluq bəzi üzdəniraq işəgötürənlərə sərf edir. Çünki onlar əlavə sosial sığorta ödənişlərindən, vergilərdən yayınaraq qeyri-leqal yolla külli miqdarda vəsait əldə edirlər. "Kölgə iqtisadiyyatı"nın formalaşmasının digər başlıca səbəbi ikili mühasibatlıqla bağlıdır. Şirkətlərdə dövriyyənin tam rəsmiləşdirilməsi həyata keçirilmir, işçilər ya əmək müqaviləsi olmadan işə cəlb olunur, ya da maaşlar sənədlərdə tam əks etdirilmir. Ona görə "kölgə iqtisadiyyatı"na qarşı mübarizənin uğurla aparılması üçün birmənalı şəkildə ikili mühasibatlığa qarşı mübarizə gücləndirilməlidir. Mühasibatlıq sisteminin tam rəsmiləşdirilməsinə ehtiyac var. Vergi orqanları bu problemin həlli üçün sosial tərəfdaşlar və müxtəlif biznes sahələrində səlahiyyətlərə malik təşkilatlarla (peşəkar assosiasiyalar, podratçı təşkilatlar) əməkdaşlıq edir. Bu əməkdaşlığın əsas məqsədi biznes sektorunu dərindən öyrənmək, bu sahədə rəsmi və qeyri-rəsmi məlumatlara yiyələnməkdir.

Lakin problemin həlli təkcə bunlardan asılı deyil. Bu məsələdə vətəndaşlar daha aktiv olmalı, əmək haqlarının tam rəsmiləşdirilməsini tələb etməlidirlər. Burada "qara" və "boz" əməkhaqqını fərqləndirmək lazımdır. Əməkhaqqını tamamilə qeyri-rəsmi alanlar - "qara" maaşa işləyənlər, gəlirinin müəyyən qismini - adətən cüzi hissəsini rəsmi şəkildə, qalan hissəsini isə gizli alanlar "boz" maaşa işləyənlərdir. Əmək bazarının tədqiqatları ilə məşğul olan "Super-job" portalının ötən il keçirdiyi sorğu zamanı müəyyən edilib ki, insanlar bir neçə səbəbə görə uçotdan gizlədilən əməkhaqqı almağa razı olur: başqa yol yoxdur; daha çox gəlirli və ya perspektivli iş əldə etmək istəyi mövcuddur və nəhayət, riskə getdiklərinin fərqinə varmırlar.

**İşçilər yaranacaq risklərdən xəbərsiz olduqları üçün kor-koranə işəgötürənin hər istəyi ilə razılaşırlar. Əvvəla, işəgötürən günün birində pulun yayındırılan hissəsini ödəməkdən imtina edə bilər və buna görə o heç kimə izahat verməyə borclu deyil. Yəni o, öhdəlikdən asanlıqla yayına bilər. Kredit götürərkən, ipoteka ilə mənzil alarkən, xaricə viza sənədləri düzəldərkən, övladının xaricdə təhsil haqqını ödəyərkən qeyri-rəsmi gəlirləri bəyan etmək olmur. Və nəhayət, sonuncu və ən mühümü olan pensiya fonduna yığımlardır. Ona görə də bütün bu risqlərdən sığortalanmağın tək yolu var - "ağ" əməkhaqqı ilə işləmək, alacağın pulun tam rəsmiləşdirilməsini tələb etmək və rahat vicdanla yaşamaq...**

# Təhsil müəssisələrinin xüsusi mühafizəsi Prezident fərmanı ilə rəsmiləşdirildi

**Məlum olduğu kimi, dövlət peşə təhsili müəssisəsinə məxsus daşınmaz əmlakın qorunması və ərazisinin mühafizəsi ilə bağlı normativlər təsdiq olunub. Bununla bağlı xüsusi qayda tətbiq olunub.**

*"Dəfələrlə həmin resursların oğurlanması və zədələnməsi haqqında məlumatlar yayılıb"*

Belə ki, dövlət peşə təhsili müəssisəsinə məxsus daşınmaz əmlakın qorunması və ərazisinin mühafizəsi üçün hər bir dövlət peşə təhsili müəssisəsi Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsi ilə müqavilə əsasında "həyəcan" düyməsi ilə təmin edilir. Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsi ilə razılaşdırılmaqla, dövlət peşə təhsili müəssisələrinin "həyəcan" düyməsi ilə təchiz olunması üçün tələb olunan vəsaitin 2019-cu ildə həmin təhsil müəssisələrinin tabe olduqları müvafiq orqanlar (qurumlar) üçün Azərbaycan Respublikasının dövlət büdcəsində təsdiq olunmuş xərclər hesabına maliyyələşdirilməsini və 2020-ci ildən etibarən hər il dövlət büdcəsində nəzərdə tutulmasını təmin etməlidir.

Təhsil müəssisələrinə məxsus daşınmaz əmlakın və ərazinin xüsusi normativlər əsasında mühafizə olunmasını ekspertlər də müsbət qarşılayırlar.

**Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hazırda ölkədə 4472 təhsil müəssisəsi var:** "Məlumdur ki, təhsil müəssisələrində kifayət qədər vəsait cəmləşib. Son zamanlar Təhsil Nazirliyi tərəfindən təhsil müəssisələrinə çoxlu sayda vəsait göndərilib. O vəsaitlər sırasında laboratoriya üçün avadanlıqlar, kompyuter və digər bahalı texniki əşyalar var. Dəfələrlə həmin resursların oğurlanması və zədələnməsi haqqında məlumatlar yayılıb. Bu baxımdan təhsil müəssisələrinə məxsus olan daşınmaz əmlakın mühafizə olunması təqdir olunası haldır".

***Kamran Əsədov:** "Təhsil müəssisələrinə məxsus daşınmaz əmlakın xüsusi qaydada mühafizə olunması vacib addımdır"*



**Həmsöhbətimiz onu da vurğuladı ki, məktəbin inzibati ərazisi təhlükəsizlik baxımından hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən qorunmalıdır. Məktəbin mühafizəsinə təqaüdə çıxmış şəxslərin cəlb olunması düzgün deyil. Orta məktəb ərazisinin dövlət qurumlarının əməkdaşları tərəfindən qorunması bu sahədə yaşanan problemləri həll edəcək. Bundan sonra məktəbin ərazisi xüsusi mühafizə olunacaq. Bu qərar valideynlərin təhsil müəssisələrinə inamını artıracaq".**

*Günel CƏLİLOVA*

# Fəlsəfə İnstitutunun və muzeyin direktoru seçki ilə?




*"Ola bilsin ki, Rəyasət Heyəti heç təqdim edilən namizədi direktor vəzifəsinə təsdiqləməsin"*

***İlqar Orucov:** "Elmi bölmələrdə gələcək direktorun namizədliyi müzakirə edilir və yekunda qərarı Akademiyanın Rəyasət Heyəti verir"*

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) iki institutuna və Azərbaycan Tarixi Muzeyinə direktor seçkilərinin keçiriləcəyi ilə bağlı xəbər yayılıb.**

Məlumatlara görə, bu barədə qərar iyunun 3-də Milli Azərbaycan Tarixi Muzeyində keçirilən (MATM) AMEA-nın İctimai Elmlər Bölməsinin (İEB) növbəti büro iclasında qəbul edilib.

İclasda Milli Azərbaycan Tarixi Muzeyi, Şərqşünaslıq və Fəlsəfə institutlarının direktorları vəzifələrinə seçkilərin keçiriləcəyi bildirilib. Bundan əlavə, Tarix İnstitutunun Elmi Şurasında dəyişiklik olunub, o cümlədən, Fəlsəfə İnstitutunda fəlsəfə fənni üzrə kursların təşkil edilməsi qərarlaşdırılıb.

Qeyd edək ki, indiyə qədər AMEA institutlarının və muzeyin direktoru Rəyasət Heyəti tərəfindən təyin olunub.

AMEA-dan aldığımız məlumata görə, ümumiyyətlə, direktor vəzifəsinə seçkilər formal xarakter daşıyır, yəni qurumun Rəyasət Heyəti kimin direktor olmasına qərar verirsə, həmin şəxs də bu vəzifəyə seçilir.

AMEA alimlərindən biri bizimlə söhbətində bildirdi ki, ümumiyyətlə, AMEA sistemində bu kimi vəzifələrə seçkilərin keçirilməsi yeni ənənədir.

Bununla belə, namizədliyi irəli sürülən şəxslər müvafiq şöbələr tərəfindən gizlin səsvermə yolu ilə seçilsələr də, direktoru aidiyyəti heyət təsdiqləyir.

**Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bizimlə söhbətində qeyd etdi ki, AMEA-nın strukturlarına həmişə seçki keçirilib.** Sadəcə, bu, daxili qaydada olduğu üçün, indiki ajiotaj yaratmayıb. "Ənənəvi olaraq həmişə Akademiyanın elmi müəssisə və təşkilatlarına seçkilər keçirilib. Direktorlar institutların elmi şuraları tərəfindən seçilir və müvafiq bölməyə təqdim olunur. Elmi bölmələrdə gələcək direktorun namizədliyi müzakirə edilir və yekunda qərarı Akademiyanın Rəyasət Heyəti verir. Ola bilsin ki, Rəyasət Heyəti heç təqdim edilən namizədi direktor vəzifəsinə təsdiqləməsin.

*"Bu, Akademiyanın daxili işidir"*

Şərqşünaslıq və Fəlsəfə institutlarına və Milli Azərbaycan Tarixi Muzeyinin direktoru vəzifəsinə də seçkilərin keçirilməsi bundan irəli gəlir.

**Akademiya institutlarının direktorları ali məktəblərin rəhbərləri kimi təyinatla bu vəzifəni tutmurlar. Akademiya İnstitutlarına direktor seçkilərinin keçirilməsi məsələsi bu qurumun öz daxili işidir. Yəni bu qanunauyğundur" - deyə İ.Orucov bildirdi.**

*İradə SARIYEVA*

# Orucluq bayramının əsl vaxtına elmi rəsədxana ilə dini cərəyanların fərqli münasibəti...

**Ramazan bayramının hansı gündə qeyd edilməsi ilə bağlı yenə əhali arasında çaşqınlıq yaranıb. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Ramazan bayramının iyunun 5-də qeyd olunacağını elan etsə də, bəzi sosial şəbəkə istifadəçiləri iyunun 4-də Ayın göründüyünü iddia edərək artıq bayram edirlər. Məlumdur ki, bu bayramın qeyd edilməsi vaxtı həm də təbii amillərlə müəyyən edilir. Söhbət ayın görünməsindən gedir.**

Azərbaycanda rəsədxana var və onlar bildirirlər ki, Ay bu gün, yəni iyunun 4-ü axşam saatlarında görünəcək. Ancaq maraqlıdır ki, bəzi cərəyanlar bunun fərqinə varmadan hansısa ölkələrin dini mərkəzlərindən aldıqları fətvalara əsasən bayramın vaxtını müəyyən edirlər.

**AMEA Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini Xıdır Mikayılov açıqlamasında deyib ki, iyunun 3-də Ay görünməyib: "Ay bu axşam görünəcək".**

Ayın görünməsinin əvvəlcədən proqnozlaşdırılması məsələsinə gəlincə, X.Mikayılov bunun mümkünlüyünü təsdiqləyib: "Xüsusi proqnozlaşdırmalarla hələ 3-5 min il sonra üçün də dəqiq proqnoz verə bilirik. Ona görə də əminliklə deyirəm ki, Ay bu axşam görünəcək. Axşam Günəş batdıqdan (gün saat 20:06-da batır) 1 saat 2 dəqiqə sonra da Ay batır (21:04-də). İyunun 4-ü axşam saat 21:20-21:30 radələrində Qərb tərəfdən üfüqə (üfüq açıq olmalıdır) baxsanız, özünüz də yeni Ayı görəcəksiniz".

Direktor müavini bu axşam Ayın adi gözlə müşahidə ediləcəyini vurğulayıb: "Bəzən Günəş batandan yarım saat sonra Ay da batır. O anda Ayı adi gözlə görmək çox çətin olur. Bu məqamda Ayı görmək üçün professional olmalısınız. Amma teleskoplarla rahat görünür. Bu axşam isə vətəndaşlar yeni doğulmuş Ayı adi gözlə görə biləcəklər. Mən hər birinizi əmin edirəm. Heç bir fikir ayrılığından söhbət gedə bilməz".

**Dini məsələlər üzrə ekspert İsmayıl Əhməd "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkəmizdə belə halın yaşandığından təəssüf hissi keçirir:** "Ramazan bayramının nə vaxt qeyd edilməsi ilə bağlı belə fikir ayrılığını yaratmaqda maraqlı olan qüvvələr var. Onlar özlərinə sərf edəndə Şamaxıdakı rəsədxanaya istinad edirlər, sərf etməyəndə isə yox. Orucluğun hansı vaxtda sona yetdiyini müəyyən etmək üçün bir sıra şərtlər var. Dində bu öz əksini tapıb. Bu amil 5 şərt üzrə təsnifatlandırılır. 1. İnsanın özü Ayı görməlidir. Yəni gözləri ilə gördükdən sonra bayramı qeyd edə bilər. 2. İki nəfər ədalətli şəxsin görməsinə inanıb bayram edə bilər. Söhbət yoldan keçəndən yox, ədalətli adamdan gedir. 3. Bir dəstə insanın bayram etdiyinə inanıb, bayramın gəldiyini müəyyən edə bilər. Həmin insanların sayının ciddi önəmi yoxdur. 4. Təchiz olunmamış gözlə, yeni teleskopla görüb bunu yəqin edə bilər. 5. Ən sonda isə astronomik hesablamalara uyğun şəkildə tərtib olunan cədvəl vasitəsilə bunu müəyyən edə bilər. Ola bilər ki, insan özü Ayı görə bilmir. Burada toplum insanlara inanmaq və ya rəsədxanadan verilən xəbərə tabe olmaq zorunda qalır. Həmin mənbələr bir-birini təkzib edirsə, onda inanclı insan təbii ki, çaşqınlığa düşür.



Bunun günahını həmin çaşqınlığı yaradanlar daşımalı olacaq. Çox yaxşı olardı ki, ölkəmizdə bu ikitirəliyə son qoyulsun. Biz eyni coğrafiyada, eyni ölkədə yaşayırıqsa, deməli, hamı bir gündə bayram etməlidir. Eyni ölkənin inanclı insanları bir gün fərqi ilə bayram edirsə, onda bunun günahı onları çaşdıranların əməl dəftərinə yazılacaq".

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BAĞIROV MAARİF YƏHYA oğlu**



16 iyun 1971-ci ildə Azərbaycan Respublikasının Bərdə rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Bərdə rayonunun Mirasəfli kəndində yaşamışdır. Bərdə RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Maarif Yəhya oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 18 aprel 1994-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Maarif Yəhya oğlu 18 aprel 1994-cü il tarixində Ağdam rayonunun Güllücə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Maarif Yəhya oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV MÖHSÜM RƏHİM oğlu**

17 avqust 1961-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. İtkin düşənə qədər Ağdam rayonunun Seyidli kəndində yaşamışdır. Mülki şəxs. Bağırov Möhsüm Rəhim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri



və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 23 iyun 1993-cü ildə Ağdam rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Möhsüm Rəhim oğlu 23 iyun 1993-cü il tarixində erməni silahlı birləşmələri Ağdam rayonunu işğal edən zaman yaşadığı Seyidli kəndi ərazisində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən girov götürüldüyü ehtimal olunur.

Bağırov Möhsüm Rəhim oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV NAMİQ ƏLSAAB oğlu**



4 sentyabr 1973-cü ildə Azərbaycan Respublikasının Göyçay rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Göyçay rayon mərkəzində yaşamışdır. Göyçay RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Namiq Əlsaab oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 10 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Namiq Əlsaab oğlu 10 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Bəhmənli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Bağırov Namiq Əlsaab oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV NƏSİR HÜSEYNQULU oğlu**

22 may 1958-ci ildə Azərbaycan Respublikasının Şuşa rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şuşa rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Şuşa özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Bağırov Nəsir Hüseynqulu oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları za-



manı 8 may 1992-ci ildə Şuşa rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Nəsir Hüseynqulu oğlu 8 may 1992-ci il tarixində Şuşa rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Nəsir Hüseynqulu oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Namaz vaxtı məscidlərin qabağında tıxacdan keçmək mümkünsüz olur - ibadətə avtomobilsiz gəlmək olmazmı...

**Bu gün Azərbaycanda ibadətlə məşğul olan inanclı insanlar çoxdur, onlar dini ritualları icra etmək üçün məscidlərə üz tutur, burada namaz qılırlar. Xüsusən də islamda müqəddəs gün sayılan cümə günündə ibadət üçün məscidlərə üz tutan insanlar daha çox olur. Əlbəttə, insanların cəm şəkildə ibadət etməsi, namaz qılması təqdirəlayiq haldır.**

Bildiyimiz kimi, paytaxt Bakıda fəaliyyət göstərən, dindarların kütləvi namaz qıldığı məscidlərin bir qismi yol kənarlarında yerləşir. Məlumdur ki, məscidlərə ibadətə gələn insanların xeyli hissəsi şəxsi maşınından istifadə edir və maşın sayının çox olması isə bəzən saatlarla davam edən tıxacla nəticələnir. Həftənin cümə günlərində məscidlərin ərazisində kifayət qədər avtomobil olur ki, bu da ərazidə digər maşınların, ictimai nəqliyyatın hərəkətinə maneə törədir. Bu hal da, istər-istəməz, müəyyən problemlər yaradır. İbadət üçün məscidlərə üz tutan dindarların heç olmasa həftənin cümə günləri məscidlərə öz şəxsi maşınları ilə deyil, alternativ vasitələrlə gəlməsi daha məqbul olardı. Bilirik ki, məscidlərin böyük əksəriyyətində maşınların yerləşdirilməsi üçün ayrıca yerlər yoxdur. Ramazan ayının bitməsi ilə əlaqədar olaraq bu günlərdə məscidlərə daha çox dindarın ibadət üçün üz tutacağı şəksizdir. Bu baxımdan, onların ibadət məkanlarına şəxsi avtomobilləri ilə gəlməsi yenə də tıxacların yaranmasına gətirib çıxaracaq. Müqəddəs dinimizdən də məlumdur ki, bir insanın öz hərəkəti ilə başqasına problem yaratması caiz deyil. İslam dini bu kimi hallara qarşıdır.

### *Hacı Təyyar Hüseynli: "Əfsuslar olsun ki, bəzən məscidlərin imamında da çox bahalı avtomobillər görmək mümkündür"*

İlahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmizdə Ramazan bayramının başa çatması münasibətilə bayram namazı qılınacaq. "Doğrudan da bu ciddi məsələdir. Bayram namazı qılmaq üçün məscidlərə kütləvi ibadətə gələn insanlar öz şəxsi avtomobillərindən istifadə edirlər. Özü də bu avtomobillərin əksəriyyəti çox bahalıdır. İlk növbədə ibadətə gələn insanların həddindən artıq bahalı avtomobillərdən istifadə etməsi dinimizə, əqidəmizə görə icazəli deyil. Burada israfdan, insanın dünya malına aşırı münasibətindən, həvəsindən söhbət gedir. Hər bir müsəlman normalda israf etmədən Yaradanın verdiyi nemətlərdən yararlansa, bu özünün, ailəsinin, ətrafının, ümumiyyətlə, hər kəsin cəmiyyət olaraq məntiqli rifahına səbəb olar. Bir ibadətli insanın 100 minlərlə qiyməti olan avtomobil sürməsinin özü də böyük israfdan xəbər verir. O adam bu vəsaiti ətrafdakı ehtiyacı olan insanlara xərcləsəydi, bu insanın ibadəti və inancı daha etibarlı olardı. Allah Rəsulu buyurub ki, qazancınızın halal olmağını bəlli etmək istəyirsinizsə, onu məsrəf etdiyiniz yerlərə baxın, nəyə xərclədiyinizi bilin və nəticə etibarilə görəcəksiniz ki, qazancınız doğrudan da halal idi. Bir dindarın bahalı avtomobillərə böyük vəsaitlər xərcləməsi və həmin avtomobillə ibadətə gəlməsi onun israfçılığını, dünya malında gözü olmasını önə çəkir. Həmin avtomobillər də həcmcə çox böyükdür və bəzən onlar iki avtomobilin yerini tuta bilər. Məscidlərə ibadətə gələn insanlar bura avtomobillə gəlməməli, ümumiyyətlə, dünya malını unutmalıdırlar. Məscidin minarəsində və ornamentində Böyük Yaradana ucalan əllərin qalxması simvolizə olunub. Yaradanı düşünən, ona əllərini açan, qaldıran insan dünya malını kökündən unutmalı, onu düşüncəsindən çıxarmalı və mənəvi baxımdan sırf Yaradana köklənməlidir.

Çünki bayram namazına gedən insan ibadətinə, Yaradanına köklənməlidir. Yüzlərlə şəxsin məscidə gəlməsi həm də həmin yerə yüzlərlə avtomobilin gəlməsi deməkdir. Maşınların da orada olması böyük tıxaclar yaranmasına səbəb olur. Bilirsiniz ki, məscidlərin ərazisində maşınların parkovka olunması üçün şərait yoxdur. Məscidlərə namaz qılmağa gələn insanların ərazidəki maşınları başqalarına problem yaradırsa, burada savabdan söhbət gedə bilməz. Ola bilsin, məsciddə elə bir ekstremal hadisə baş versin ki, kimsə ibadət yerindən uzaqlaşdırılsın, amma onu oradan çıxarmaq çox çətin olar. Çünki maşınlar elə dayanıb ki, gərək maşın sahiblərinə maşını çıxarması ilə bağlı müraciət etsin. Bu maşınlar ərazidə sıxlıq yaradır. Məscidə ibadətə gələn insanların hər biri ora bahalı maşında yaxınlaşsa, bilirsiniz nə qədər parklanma yeri lazım olur. Onlar üçün böyük ərazi lazımdır".



*"İri avtomobilləri bir-birinin yanında saxlayırlarsa, bu, böyük bir ərazini tutur və başqa insanların əziyyət çəkməsinə səbəb olur"*

H.T.Hüseynlinin qeyd etdiyinə görə, dindarlar cümə namazları qılmaq üçün, yaxud Fitr bayramında məscidlərə gələrkən avtomobillərini elə yerdə saxlasınlar ki, insanlara maneçilik törətməsinlər. O bildirdi ki, bu məsələdə insanlara nümunələr təqdim edilməlidir. "Bu gün məscidlərə ibadətə gələn insanlar öz bahalı avtomobilləri ilə əhaliyə narahatlıq yaradırlarsa, onların maşınları ətrafda sıxlığın yaranmasına səbəb olursa, bu onlar tərəfindən başqalarının haqqına girmək kimi qiymətləndirilməlidir. Kütləvi ibadət vaxtı dindarlar çalışmalıdırlar ki, öz bahallı avtomobilləri ilə insanlara narahatlıq yaratmasınlar" - deyən H.T.Hüseynli hesab edir ki, çox bahalı maşınlarla məscidlərə gələn insanların ibadətlərindən ilahi zövq alması müəmmalı görünür: "Təəssüf ki, belə insanlar bir deyil, beş deyil, çoxdur. O insanların təfəkkürünü təmizləmək lazımdır. Əfsuslar olsun ki, bəzən məscidlərin imamında da çox bahalı avtomobillər görmək mümkündür. Bahalı avtomobili biznes adamında, ticarətçidə görmək mümkündür, amma məscidin imamında o cür bahalı avtomobili görərkən bu, insanda qəribə təsəvvürlər yaradır. Düşünürəm ki, aidiyyəti qurumlar ibadətə öz bahalı maşınları ilə gələn insanların məsələsinə xüsusi diqqət yetirməlidirlər. Çünki bu çox aktual problemdir. İri avtomobilləri bir-birinin yanında saxlayırlarsa, bu, böyük bir ərazini tutur və başqa insanların əziyyət çəkməsinə səbəb olur.

**Onlar avtomobilləri elə yerdə saxlamalıdırlar ki, insanlara, ictimai nəqliyyata hər hansı maneçilik törətməsinlər. İbadət, birmənalı olaraq, həm insanın özünə, həm də ətrafına xeyirlidir. Əgər bu, ətrafa hər hansı bir maneçilik törədəcəksə, o ibadəti hətta dayandırmaq lazımdır. Dərin ədəbiyyatda var ki, insanın malına, canına hər hansı bir təhlükə olduğu zaman insan ibadəti belə dayandırmalıdır. Bu xüsusilə önəmli məsələdir".**

***İradə SARIYEVA***

# Dəmir Mayor - Borçalının igid oğlu...

**Ulu babalarımızdan bizə miras qalan qədim yurd yeri Borçalı… Qarayazı meşəsi, Ləlvər dağı sanki bu ulu yurda bir bəzək verir. Anaların laylası saz havalarına köklənib bu ellərdə. Başqa dövlətin tərkibində olmasına baxmayaraq, zaman-zaman öz adət-ənənələrini bu gün də qoruyub, gələcək nəsillərə ötürməyi bacarırlar.**

Başı qarlı dağların sinəsindən dünyaya boylanan bu ulu yurd kimləri yetişdirmədi? Neçə-neçə generallar, elm adamları, şairlər, qəhrəmanlar doğuldu, xalqın inkişafına öz töhfələrini verdilər. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Bəkir Mustafayev, İsmayıl Bayramov, Xalq şairi Zəlmixan Yaqub, Rəşid Behbudov da məhz Borçalı elinin yetirmələridir.

Sən sirri açılmayan bir xəzinəsən, yelkənli bir gəmisən. Qarlı, çovğunlu hündür dalğaları yara-yara uzun zamandı yol gəlib, min illərin ağrılı-acılı, sevincli-nəşəli günlərinə şahidlik edirsən. O günün xatirəsini bu günümüzəcən daşıyan yeganə varlıqsan. Qayaların köksündən qopan, " cəngi" sədalarını andıran yeganə varlıq… Sən nələrə şahidlik etməmisən ki...

*Əyilməzdi- yağılara qənimdi,*

*Adı, sanı şöhrətimdi, şanımdı.*

*Tarix boyu mənim olub, mənimdi,*

*Qarayazı, Baş keçidim, Borçalım.*

Elin yurdsevər oğulları yadelli işğalçılara qarşı amansız savaşlarda mübarizədən də yorulmayıb. Ermənilərin yurdumuza təcavüzü zamanı bu yurdun oğulları da silaha sarılıb Qarabağa yollandı, elə Vəzir İsa oğlu Sədiyev kimi.

Vəzir Sədiyev isti yay günü - 6 iyun 1961-ci ildə Marneuli rayonunun Aşağı Qullar kəndində dünyaya göz açıb. Ailədə 6 övladın üçüncüsü olub Vəzir. Atası İsa kişi öz halal zəhməti, alın təri ilə bütün övladlarını böyüdüb, onlara təhsil verib və deyib: "Nə qədər sağam, imkan verməyərəm ki, mənim övladlarım kimsənin əlinə baxsınlar. Onları böyüdüb təhsil verirəm ki, Xalqına, Vətəninə layiqli övladlar olsunlar".

Vəzir ibtidai sinfə doğulduğu kənddə getsə də, orta təhsilini Qərbi Azərbaycanın Noyemberyan rayonunun Körpülü kəndində başa vurub. Dilli-dilavərliyi, bacarığı və çevikliyi ilə tay-tuşlarından seçilib həmişə. Elmə, təhsilə olan marağı, vətənpərvərliyi onu müəllim kollektivinə sevdirib. O, hələ uşaq olmasına baxmayaraq, ermənilərin çirkin niyyətlərini görür və dərk edirdi. Hərbçi olmaq istəyi isə sanki onun qanından, canından gəlirdi.

Yeri gəlmişkən, 2002-ci ildə aparılmış sonuncu siyahıyaalmanın nəticələrinə görə, Marneuli rayonunun əhalisinin 83,1%-ni azərbaycanlılar, 8%-ni gürcülər, 7,9%-ni ermənilər təşkil edir. Ən iri yaşayış məntəqələri Marneuli şəhəri (əhalisi: 20,1 min nəfər), Sadaxlı (9,5 min nəfər) və Qızılhacılı (7,1 min nəfər) kəndləridir ki, bunların da əsas hissəsini azərbaycanlılar təşkil edir

Vəzirin musiqiyə böyük marağı vardı. Saz havalarının vurğunu idi. Qulaq asmaqdan doymazdı heç vaxt. Axı Borçalı eli hər zaman sazlı-sözlü aşıqları ilə məhşur olub. Aşıq Hüseyn Saraclı kimi…

Vəzir orta təhsilini başa vurandan sonra arzu və istəklərinin dalınca doğulduğu yurda qayıtdı. O, ilk öncə sənədlərini Azərbaycan Tibb İnstituna verdi. O istəyirdi ki, hərbi cərrah olub, neçə-neçə hərbçinin yaralarına məlhəm olsun. Ancaq istəyinə nail ola bilmədi. Ömür yolu ona erkən yaşlarından peşakar hərbçi taleyi yaşatdı. Elə həmin il Tiflis Ali Hərbi Artilleriya Məktəbinin müdavimi olmağı bacardı. Sevincinin həddi-hüdudu yox idi. Təhsilini başa vuran kimi təyinatla Rusiyaya yola düşən Vəzir Qorki şəhərindəki hərbi məktəblərin birində müəllimlik fəaliyyətinə başladı. Yenə də sevildi, seçildi. Amma o bir yerdə dayanmır, daim öz üzərində çalışır, sanki öz bilik bacarığını döyüşlərdə sınamaq istəyirdi. Buna görə də könüllü Əfqanıstana getməyi qərara alır.

Sovet qoşunları Əfqanıstana girəndə baş leytenant Vəzir Sədiyev artilleriya taborunun komandiri idi. Əfqanıstana gəldiyi gündən ən qaynar nöqtələrdə vuruşurdu. Kabil, Qəndahar, Herat şəhərlərində aparılan əməliyyatlarda misilsiz şücaətlər göstərir. Sədiyevin uğurlu və itkisiz əməliyyatları komandanlığın gözündən yayınmırdı. O, iki il yarımlıq döyüş yolunda ən çətin sınaqlardan müvəffəqiyyətlə çıxmışdı. Ona görə də dəfələrlə pul mükafatı, orden, medal və SSRİ Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdi.

Döyüşlərin birində ölümcül yaralanan Sədiyev Moskvada müalicə aldıqdan sonra Zabaykalye Hərbi Dairəsindəki hərbi hissələrin birində qərargah rəisinin müavini kimi fəaliyyətə başladı. Əfqanıstandakı uğurlu əməliyyatlara görə ikinci dərəcəli "Peşəkar zabit" döş nişanı ilə təltif olunan Sədiyev artıq mayor rütbəsində idi. Yaraları qaysaq tutsa da, müharibənin ağrıları canından çıxmamışdı hələ.

Statistikalara görə, 10 illik hərbi əməliyyatlar dövründə Əfqanıstanda 2 milyon nəfərə yaxın mülki sakin həlak olub. Sovet ordusu 1989-cu ilə qədər Əfqanıstanda 14.427 hərbçisini itirib. Hərbi əməliyyatlarda təxminən 54 min nəfər yaralanıb, 416 min nəfər isə müxtəlif dərəcəli kontuziyalar alıb. Sovet ordusunun Əfqanıstanda texniki itkisi isə belə olub: 147 tank, 1314 zirehli transportyor, 433 artilleriya sistemi, 118 təyyarə və 333 vertolyot. Müharibənin aparıldığı 1979-cu il dekabrın 25-dən 1989-cu ilin fevralın 15-dək Əfqanıstanda Sovetlər Birliyinin 620 min hərbi qulluqçusu xidmət edib.

On illik Əfqanıstan müharibəsində Azərbaycanlıların da xidmətləri danılmazdı. Onun vurduğu ağır zərbələrinin əzab-əziyyətini hələdə indiyə kimi yüzlərlə soydaşımız çəkməkdədir. 1979-cu ildən 1989-cu ilə qədər Əfqanıstanda 7500 azərbaycanlı iştirak edib. Onların 208-i müharibədə həlak olub, 7 nəfər isə itkin düşüb. Bu gün Azərbaycanda cəmi 5 minə yaxın Əfqanıstan müharibəsi veteranı adını daşıyır. Əfqanıstandan qayıdandan sonra onların bir çoxu Qarabağda gedən döyüşlərdə həlak olub və ya sonradan vəfat edib. Əfqanıstan müharibəsi veteranlarından 17 nəfəri sonradan Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Milli Qəhrəman adına layiq görülüb.

1988-ci il… Qərbi Azərbaycandan 300 mindən artıq soydaşımız məcburi şəkildə öz dədə-baba yurdlarından didərgin salınaraq Azərbaycana pənah gətirmişdi. Qarı düşmən bununla kifayətlənməyərək, Dağlıq Qarabağda müxtəlif cinayətlər törədir, əliyalın əhaliyə hücumlar edir, evləri yandırırdır. Artıq Xalq ayağa qalmışdı. Azadlıq meydanı dolub-daşır, mitinqlər başlamışdı. Əhali hökumətin istefasını tələb edir, Dağlıq Qarabağda və onun ətrafında baş verənlərə düzgün qiymət verilməsini tələb edirdilər. Hökumət isə sanki baş verənləri görmür, əksinə, öndə gedənləri millətlər arasında qarışıqlıq yaratmaqda suçlayaraq, qollarını qandallayıb dəmir barmaqlıqlar arasına salırdı. Ancaq qarı düşmən getdikcə azğınlaşır, hər gün bir kəndi dağıdır, əhalini güllə-baran edir, daim səksəkə içində saxlayırdı. Əhalinin səsi heç yerdə eşidilmirdi. Yalnız ümid özlərinə qalırdı. Az keçmədi ki, bu mitinqlər bölgələri də bürüdü.

Ürəyi Vətən eşqilə döyünən ziyalılarımız sinələrini qabağa verib, torpaqları işğaldan azd etməyin yalnız bir yolu olduğunu deyirdilər: birləşib düşmənlə sərt mübarizə aparmaq. Bu, dildə asan deyilsə də, olduqca çətin bir iş olduğunu da yaxşı bilirdilər.






Məkrli düşmən Qarabağda torpaq iddiası ilə ayağa qalxanda mayor Sədiyev Azərbaycanın Müdafiə Nazirliyinə müraciət etdi. Doğma yurdda baş verən hadisələr onu narahat etməyə bilməzdi. O, qürbətdə olsa da, daim Azərbaycanda baş verən prosesləri izləyir, yaxınlarından məlumatlar alırdı. Xocalı faciəsi onun Azərbaycana gəlib Vətəninə xidmət etmək istyini sürətləndirdi. Müdafiə Nazirliyinə yazdığı müraciətə qısa zamanda baxılaraq müsbət cavab verildi. Vətənə dönən peşəkar hərbçi Artilleriya və Hərbi Hava Qüvvələri idarəsində döyüş hazırlığı şöbəsinin rəis müavini vəzifəsinə təyin edildi. Və həmin gündən Vəzir Sədiyevin səsi ən qaynar nöqtələrdən gəldi. Onun peşəkar zabit kimi Milli Ordunun yaradılmasında da böyük xidmətləri vardı.

Laçın dəhlizi və bir çox kəndlər düşmənin nəzarətində idi. Düşmən dəhliz vasitəsi ilə bura çoxlu sayda silah-sursat, hətta imperiyadan miras qalmış ən ağır texnikalar Qarabağa daşınırdı. Cəsarətli soydaşımız mayor Sədiyev heç bir əmr gözləmədən həmin karvanın qarşısını almaq üçün əməliyyata keçdi. Hədəfi nişan aldı. Bir neçə dəqiqənin içində 84 yük avtomobili məhv edildi. O gün dəhliz boyu göylərə yüksələn alov neçə-neçə düşmənin sonuna çıxdı.

Vəzirin bu addımı çoxlarını narahat etməyə başladı, hətta o zamankı müdafiə naziri Rəhim Qazıyev tərəfindən nazirliyə çağırıldı. Komanda verilmədiyi halda nəyə görə düşmənə zərbə endirdiyi soruşulduqda: "Bu ki, düşməndi, düşməni məhv etmək üçün əmr lazımdırmı?! Əgər mənə məxsus olan yolla düşmən arxa cəbhə üçün silah-sursat və ərzaq daşıyırsa susub durmalıyammmı, yoxsa haradansa əmr gözləməliyəm?!- deyə Vəzir qürur və qətiyyətlə bildirdi.

Müdafiə naziri üzünü Vəzirə tutub sərt və qəti şəkildə etiraz etdi: "Sən bizimlə işləyə bilməzsən".

- Axı mən xalqıma silah qaldıranlara qarşı vuruşuram, o dəhliz vasitəsilə Qarabağa ağır texnikanın daşındığından necə xəbərsiz ola bilərsiniz?- Vəzir səsini ucaldı.

Qazıyev susmağa üstünlük verdi.

Vəzir çox narahat idi. Qulaqlarına inanmırdı. Düşmən ağır texnika ilə irəlilədiyi bir zamanda müdafiə nazirindən aldığı cavabı əsl satqınlıq kimi qiymətləndirdi.

Amma olan olmuşdu.

Sədiyev həm də peşəkar kəşfiyyatçı idi. O, təkbaşına düşmənin arxasına keçərək lazımi məlumatları qərargaha ötürməklə yanaşı, strateji obyektlərin darmadağın edilməsində əhəmiyyətli rol oynayırdı. Hətta Gorus-Qafan istiqamətində düşməni pusquya salan Sədiyev silahdaşları ilə birlikdə bir erməni əsgərinin də salamat çıxmasına imkan verməmişdilər. Həmin gün yasa bələnmişdi bütün Ermənistan, hətta üç günlük matəm elan olunmuşdu.

Füzulidəki adsız yüksəkliyi geri qaytarmaq üçün Vəzir qərargahdan əmr aldı. Kəşfiyyat xarakterli manevrdən sonra bölük zirvəyə doğru irəlilədi. Dağın zirvəsində lağım atmaqla düzəltdikləri mağarada saysız-hesabsız silah-sursatın və böyük bir dəstənin gizlənə biləcəyini təsəvvürə gətirmək mümkün deyildi. Amma yenə də Vəzir Sədiyev ehtiyatlı davranırdı. O gecə dan yeri ağarana qədər sürünə-sürünə dağa çıxdılar. Ocaq ətrafında cəmləşən quldurlar qaranlıqda nələrin baş verdiyindən xəbərsiz idi. İki nəfər gözətçidən başqa hamısı ocağın istisində xumarlanırdı. Bəlkə də bu yüksəkliyi fəth edə biləcək bir qüvvənin olacağına inana bilmirdilər. Ona görə də arın-arxayın ayaqlarını uzadıb özləri üçün xəyal qururdular. Vəzir Sədiyev ilk həmlədə keşikçiləri cəhənnəmə göndərib, mağaraya gedən yolun təhlükəsizliyini təmin elədi. Sonra kimin üzərində nə qədər qumbara vardısa mağaraya atılmasına əmr verdi. Haray-qışqırıq tamam kəsiləndən sonra, sanki havanı "kabab qoxusu" bürümüşdü. Kimsə salamat çıxa bilməmişdi o mağaradan. Hər kəs yanıb külə dönmüşdü. ...Dan yeri ağaranda sərin meh o qoxunu dağın arxasına qovub apardı.

Mağaradakı silahlardan güc çatan qədər götürüb aşağı endilər, üstəlik bir-iki cəsəd də gətirmişdilər ki, əsirlikdə olan soydaşlarımızla dəyişdirsinlər.

Vəzir silahdaşlarının gözündə ən yüksək zirvədə idi, çünki onun uğursuz döyüşünü heç kim görməmişdi. Axı o, "dəmir mayor" idi. Əslində, bu adı ona ermənilər vermişdi.

1993-cü il fevral ayının 19-u… Ağdərədə döyüşlər şiddətlənmişdi. Ümid yenə də Vəzirə idi. Həsənriz ətrafında cəmləşən erməni taborunu geri oturtmaq üçün növbəti əməliyyata da Vəzir rəhbərlik edəcəkdi. Vaxt itkisi digər ərazilərin də ələ keçməsinə səbəb ola bilərdi. Vəzir silahdaşları ilə birlikdə döyüşə atıldı. Neçə-neçə düşmən əsgərini yerə sərdi. Xof içərisində silahını atıb qaçan quldurların sayı artırdı. Xeyli ölən və yaralanan vardı. Həmin gün əsgərlərimiz erməni taborunu tutduğu mövqedən çıxara bildi. Hələ üstəlik, tank, PDM, yük maşını da ələ keçirildi. Bu növbəti uğuru idi Vəzirin. Amma bu uğurun sevincini yaşamaq qəhrəman soydaşımıza nəsib olmadı.

Şəhidlər Xiyabanı… And yerimiz olan bu xiyaban hər zaman bizim ziyarət yerimiz olaraq qalacaqdı. Vəzirin uyuduğu bu məkan daim qohumları, dostları, döyüş yoldaşları tərəfindən yad edilir.

Vəzir İsa oğlu Sədiyev qorxmazlığı, cəsarəti ilə Azərbaycanın hərb tarixinə öz adını yaza bildi. Qəhrəmanlıqla dolu döyüş yolu yetişməkdə olan nəslin qəlbindəki vətənpərvərlik toxumunu cücərtdi. Torpaqlarımızın bütövlüyü uğrunda ölümsüzlüyə qovuşan yurdsevər soydaşımız Prezidentin 15 yanvar 1995-ci il tarixli 262 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Biləcəri qəsəbəsindəki parkların birində şəhid soydaşımızın büstü qoyulub.

**Vaxtilə alın təri, halal zəhməti ilə 6 övlad böyüdən Nənəqiz ana bu gün də, ahıl yaşında olmasına baxmayaraq, nikbindir. Ürəyi həyat eşqi ilə doludur. Axı o, Milli Qəhrəman anasıdı…**

***Vüqar ƏSGƏROV***

# Azərbaycanda milli oyuncaqlar istehsalı - boşluq olduğu üçün xarici idxalçılar fəallaşır

**Oyuncaqlar hər uşağın sevimli əşyasıdır. Onlar vaxtlarını əyləncəli keçirmək üçün oyuncaqlarla oynayır, onlarla dostlaşırlar. Oyuncaqlar həm də körpələrin zehni inkişaf mənbəyidir. Belə ki, oyuncaqların keyfiyyəti, materialı çox önəmlidir.**



***Vahid Əhmədov:** "Hardasa fabrik tikib, orada milli oyuncaq istehsalına başlamaq Azərbaycan üçün ciddi problem deyil"*

***Tahirə Əliyeva:** "Hazırda yerli istehsal evdə oyuncaq hazırlamaq sayılır, bu isə daxili tələbatı belə təmin etmir"*

***Natiq Cəfərli:** "Azərbaycanda oyuncaq istehsalı yox səviyyəsindədir"*

Məlumat üçün bildirək ki, SSRİ dövründə oyuncaqlar və uşaq ləvazimatları əsasən İttifaq daxilində istehsal olunurdu. Az bir qismi isə xaricdən idxal olunurdu ki onların da tərkibi və keyfiyyəti ciddi yoxlanılırdı. Lakin Sovet İttifaqının dağılmasından sonra MDB məkanı bir sıra ölkələrin kimyəvi zavodlarının təhlükəli tullantılarından hazırlanmış məhsulların münbit bazarına çevrildi. Bu problem Azərbaycanda da müşahidə edilir. Belə ki, ölkəmizin oyuncaq bazarının çox böyük hissəsini idxal məhsulları təşkil edir.

Qeyd edək ki, bazarda İran, Rusiya, Ukrayna, Almaniya, İtaliya və digər Avropa ölkələrinin istehsalına rast gəlinsə də, bunların həqiqətən həmin ölkələrin istehsalı olduğuna inanmaq olduqca çətindir. Çin istehsalı demək olar ki, liderdir. Bu məhsullara olan tələbat daha çox qiymət ucuzluğu ilə bağlıdır. Son zamanlar aparılan reydlər zamanı satışdan çıxarılan oyuncaqlar da Çin istehsalıdır. Bu oyuncaqların tərkibindəki kimyəvi maddənin çoxluğu nəticəsində oyuncaqlar uşaqların dostuna deyil, onları ölümə sürükləyən düşmənə çevrilir. Bunun üçün oyuncaq alarkən keyfiyyət nişanı tələb etmək, ümumiyyətlə, olduqca diqqətli olmaq lazımdır.

Bəllidir ki, oyuncaq tək bu gün deyil, hər zaman tələb olunan əşyadır. O üzdən, ölkədə yerli oyuncağın istehsal olunması daha münasib olar.

**Millət vəkili Vahid Əhmədov qeyd etdi ki, hardasa fabrik tikib, orada milli oyuncaq istehsalına başlamaq Azərbaycan üçün ciddi problem deyil.** Bunun üçün Azərbaycanın kifayət qədər maddi vəsaiti də var. Ölkəmizdə bununla məşğul olacaq sahibkarlar yetərincədir. Bu məsələ hökumətin nəzərində olmalıdır. Uşaqlarımızın milli oyuncaqlarımızla böyüməsi vacib məsələdir: "Xaricdən gətirilən oyuncaqlar həm tərkibinə, həm də uşaqlara aşıladığı tərbiyə və mədəniyyət baxımından ölkə siyasətinə uyğun deyil".

**Ev şəraitində yumşaq oyuncaq düzəldib satışı ilə məşğul olan Tahirə Əliyeva bizimlə söhbətində bildirdi ki, hazırda yerli istehsal yalnız evdə oyuncaq hazırlamaq sayılır:** "Bu işlə oyuncaq hazırlamağı bacaranlar məşğul olurlar. Onlar ev şəraitində müxtəlif növ oyuncaqlar hazırlayırlar. Hər bir oyuncağın hazırlanmasına isə 2-3 gün vaxt sərf edilir. Ara-sıra İçərişəhərdə təşkil olunan yarmarkalarda iştirak edirik. Əl işlərinə daha çox xarici vətəndaşlar maraq göstərirlər. Öz vətəndaşlarımız çox az halda alırlar. Ucuz da verə bilmirəm. Çünki oyuncağın yaradılmasında çox əziyyət çəkirəm. Oyuncağın əl işi olduğuna çoxu inanmır. Düzəltdiyim oyuncaq hansısa zavodda istehsal olunan məhsuldan geri qalmır".

T.Əliyeva onu da vurğuladı ki, yerli istehsal əsasən evdə insanların oyuncaq hazırlayıb satışa çıxarmasıdır. Ancaq bu sahədə çoxlu sayda problem var: "Belə ki, əl əməyi olan məhsulu ucuz qiymətə satmaq mümkün deyil. Həmçinin, hazırladığımız oyuncaqların tanınmasında bizə yardım göstərilmir".

**İqtisadçı-ekspert Natiq Cəfərli bizimlə söhbətində qeyd etdi ki, Azərbaycanda oyuncaq istehsalı yox səviyyəsindədir:** "Əsasən Çin və Türkiyədən ölkəyə oyuncaq idxal olunur. Bazarda idxal məhsulları üstünlük təşkil edir. Yerli istehsal isə yalnız əl əməyidir. Kimsə öz bacarığı hesabına oyuncaq hazırlayıb bazara çıxarır. Əl əməyinin də həcmi çox azdır. Nəzərə almaq lazımdır ki, bu gün oyuncaq sektoruna böyük tələbat var. Yerli istehsal olarsa, oyuncaq bazarında həm keyfiyyətli məhsul olar, həm də qiyməti ucuz olar. Bu sahəyə maraq azdır. Yaxşı olar ki, sahibkarlar oyuncaq bazarına maraq göstərsinlər. Xarici şirkətlər ölkədə oyuncaq istehsalı üçün sərmayə yatırmalı və yerli sahibkarlarla birgə bu sahə üzrə çalışmalıdırlar.

***Günel CƏLİLOVA***

# Bakıətrafı avtobuslarda uşaq konduktorlar yenə peyda olmağa başlayıb

**Azərbaycan qanunvericiliyi uşaq əməyinin istismarını qadağan etsə də, ölkəmizdə bu hal ortadan qalxmır. Əksinə, getdikcə vəziyyət daha kəskin xarakter alır. Şübhəsiz ki, mövcud problem və ondan qurtuluş yolları barədə zaman-zaman mətbuat səhifələrində yazılar dərc olunur.**



*"...əfsuslar olsun ki, bunun şahidi olmuruq"*

***Fatimə Hacıbəyli:** "Məktəbyaşlı uşaqları yanlarında çalışdıran şəxslər cinayət məsuliyyəti daşıyırlar"*

Buna rəğmən, məsələyə əncam çəkilmir. Uşaq əməyindən istifadə sanki bir ənənəyə çevrilib. Hər birimiz gün ərzində müxtəlif işlərdə çalışan uşaqlara rast gəlirik.

Uşaq əməyindən daha çox avtobuslara sərnişinlərdən pul yığılması zamanı istifadə olunur. Sürücülər məktəbyaşlı uşaqları "konduktor" kimi yanlarında çalışdırırlar.

Bu hal əsasən Bakı kəndlərinə hərəkət edən avtobuslarda müşahidə olunur. Apardığımız araşdırma zamanı bu halın 131,186, 107, 189, 168, 191, 12 nömrəli avtobuslarda yaşandığının şahidi olduq. İyunun 4-də "Əhmədli" metrostansiyasına doğru hərəkət edən 12 saylı avtobusda sərnişinlərdən yol pulunu 12-13 yaşlı məktəbli alırdı. Həmin uşaq o vaxtı ya dərsdə olmalı, ya da evlərində dərslərinə hazırlaşmalıdır. Əksinə, o, bütün günü özündən dəfələrlə böyük insanlarla təmasda olur. Onların işlətdikləri ədəbsiz sözləri mənimsəyir ki, bu da həyata baxışının dəyişməsinə səbəb olur. Nəticədə uşağın gələcəyi elə körpəliyindən korlanır. Doğrudur, bu halı ailənin sosial şəraitinin ağırlığı ilə izah edənlər də mövcuddur.

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, məktəbyaşlı uşaqların işləməsi tamamilə qanunsuzdur.** Məktəbyaşlı uşaqları yanlarında çalışdıran şəxslər cinayət məsuliyyəti daşıyırlar. Bu, uşaq əməyinin istismarı deməkdir. Azyaşlıların əməyindən istifadə edənlər cəzalandırılmalıdırlar. Əfsuslar olsun ki, bunun şahidi olmuruq. Heç kim onlara söz demir: "Avtobuslarda "konduktor" işləyən azyaşlı uşaqlar sərnişin toplamaq üçün axşama kimi müştəri səsləməyə məcbur edilir. Bu işlə uşaq yaşından məşğul olan şəxsin psixoloji problemləri olacaq".

Həmsöhbətimiz onu da vurğuladı ki, Azərbaycan Respublikasının Konstitusiyasına görə, hər bir kəsin təhsil almaq hüququ var: "Təhsil haqqında" Qanunda qeyd olunur ki, icbari təhsil məcburidir, yəni 9 illik təhsil məcburidir. Bu o deməkdir ki, 9-cu sinif də daxil olmaqla oxuyan şagirdlər heç bir yerdə çalışa, işləyə bilməzlər. Hər hansı formada işlərə, xidmət sektorlarına cəlb edilirlərsə, bu, həmin məktəblinin təhsil aldığı məktəbin direktorunun düzgün fəaliyyət göstərməməsinin bariz göstəricisidir. Çünki dövlətimiz, valideynlərimiz şagirdləri məktəblərə etibar ediblər. Onlar şagirdlərinə düzgün nəzarət etməlidirlər. Doğrudur, bəzi valideynlər bundan xəbərdardırlar, uşağının işlədiyini görür, amma buna icazə vermək olmaz. Valideynlərə uşaqlarının həyatını təhlükə altına atmasına icazə vermək olmaz. Çünki onlarla əmək müqaviləsi bağlanmır və onların hər birinin həyatı təhlükə altındadır".

Birlik sədrinin sözlərinə görə, məktəbli uşaqları daşıyıcılarda "konduktor" kimi çalışdıran sürücü və sahibkarlar cəzalandırılmalıdırlar. Çünki onlar uşaq əməyindən istifadə edirlər.

***Günel CƏLİLOVA***

№ 99 (3997) ■ Qiymətі: 40 qəpik

# BAKI XƏBƏR

5 İYUN 2019-cu il

www.baki-xeber.com

## Dünyanı "Azercell" ilə səyahət et!

*"Azercell" abunəçilərinin istifadəsinə yeni Aylıq Rominq İnternet Paketini təqdim edir*

**Rominq zamanı internet xidmətindən istifadəni abunəçiləri üçün daha əlçatan və rahat etməyi hədəfləyən "Azercell" müştərilərinin xaricdə faydalana biləcəyi yeni Aylıq Rominq İnternet Paketini təklif edir. Beləliklə, artıq "Azercell" abunəçiləri 39.90 AZN ödəməklə 3 GB həcmində Aylıq Rominq İnternet Paketlərindən yararlana biləcəklər.**




Qeyd edək ki, "Azercell" abunəçiləri günlük 100 MB həcmində Rominq İnternet Paketini 3.90 AZN, 3 günlük 400 MB həcmində Rominq İnternet Paketini 9.90 AZN və 14 günlük 1 GB həcmində Rominq İnternet Paketini 19.90 AZN ödəməklə sifariş edib, gözlənilməz internet xərclərinin qarşısını almaq fürsətindən istifadə edə bilərlər.

"Azercell"in Rominq İnternet paketləri dünyanın 53 ölkəsində fəaliyyət göstərən 80 operatorun şəbəkəsində qüvvədədir və siyahı daim yenilənir. Əlavə olaraq, Türkiyə, Gürcüstan, ABŞ, Qətər, Belarus, Finlandiya, Özbəkistan, Yeni Zelandiya, BƏƏ, Çin, Rusiya, Qazaxıstan, Ukrayna, Tacikistan və Moldova kimi populyar istiqamətlərdə rominq internet paketləri bütün şəbəkələrdə etibarlı olduğundan, "Azercell" abunəçiləri prioritet operatoru seçmək zərurətinə ehtiyac duymadan, istənilən şəbəkədə internet xidmətindən istifadə etmək imkanına malikdirlər.

Dünyanı "Azercell"in ən sərfəli Rominq İnternet Paketləri ilə səyahət edin! Sizə ən uyğun Rominq İnternet Paketini seçib, bu yay rominqdə "Azercell"lə onlayn olun!

Daha ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/roaming/internet-roaming/ səhifəsinə daxil olun.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Kətənov Fuad Rüstəm oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Sadıqova Qərənfil İdris qızının adına, Bakı şəhəri Nizami rayonu, E.Süleymanov küçəsi, ev №49, mənzil №273 ünvanının orderi itdiyi üçün etibarsız sayılır.

Kələşov İlham Hüseyn oğluna Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi (M/V № 004840) itdiyi üçün etibarsız sayılır.

Həmzəyev Xalid Həmzə oğlunun adına, Sabirabad rayonu, Əhmədabad kəndində yerləşən torpaq sahəsinə verilmiş şəhadətnamə (JN-19 kod 90900018) itdiyi üçün etibarsız sayılır.

Hüseynov Şamil Həbib oğluna Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Dubina Snejana Mixayılovnaya məxsus, Bakı şəhəri, Yasamal rayonu, Ə.Haqverdiyev küçəsi, ev №2 A, mənzil №18 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## 2020-ci ildə kosmosa canlı orqanizmlər göndəriləcək

**ABŞ Kosmik Agentliyi (NASA) 2020-ci ildə canlı orqanizmlərin uzaq kosmosa göndərilməsi üzrə eksperimentə başlayacaq.**



"ICTnews" bildirir ki, tədqiqat "Artemis 1" proqramı çərçivəsində "NASA" konstruktorları tərəfindən yaradılan "BioSentinel" kosmik zondunun göyərtəsində aparılacaq. Eksperimentlərin aparılması üçün günəşətrafı orbitə çıxarılacaq 14 kiloqramlıq aparatın bölməsində iki tip maya göbələyi var. Tədqiqatçılar qeyd edir ki, bitkilərdən biri radiasiya təsirinə digərinə nisbətən daha dözümlü olacaq. Bildirilir ki, 9-12 ay davam edəcək eksperiment zamanı tədqiqatçılar maya göbələklərinin çoxalma prosesini öyrənmək niyyətindədirlər. Elmi işə üç laboratoriyada aparılan müşahidələr daxildir. Onlardan biri peyk bölməsi ilə müqayisədə radiasiyanın daha az səviyyədə olduğu Beynəlxalq Kosmik Stansiyada, digəri isə Nyu-York ştatında yerləşən Brukheyven Milli Laboratoriyasında aparılacaq. Orada bitkilər güclü radiasiya şüalanmasına məruz qalacaqlar. "NASA" mütəxəssislərinin sözlərinə görə, maya göbələklərində DNK-nın bərpa prosesi insan orqanizmindəki proseslərə bənzəməsi əhəmiyyət kəsb edir. "BioSentinel" zondunda tədqiqatların göstəriciləri radiasiyanın orqanizmlərə təsirinin nəticələrinin qiymətləndirilməsi zamanı mühüm rol oynayacaq", - mütəxəssislər qeyd edib. "Artemis 1" proqramı kosmosa ümumilikdə 12 peykin çıxarılmasını nəzərdə tutur. Onların ikisi - "Lunar Flashlight" və "Lunar IceCube" su buzunun izlərinin aşkarlanması məqsədilə Ay səthini tədqiq edəcək. Günəş yelkəni ilə təchiz edilən zondu isə asteroidlərin birinə göndərmək planlaşdırılır.

## "Bakcell" "1 iyun"u uşaqlarla birgə qeyd etdi

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti Uşaqların Beynəlxalq Müdafiəsi Gününü Azərbaycana Birgə Yardım (UAFA) təşkilatı və "SOS Uşaq Kəndləri Azərbaycan" Assosiasiyasının himayəsindəki xüsusi qayğıya ehtiyacı olan və valideyn himayəsindən məhrum olmuş uşaqlarla birgə keçirib.**



200 nəfərə yaxın uşağın iştirakı ilə "SOS Uşaq Kəndi"ndə keçirilən bayram tədbirində uşaqlar maraqlı əyləncə və müsabiqələrdə iştirak ediblər.

"Bakcell" artıq 10 ildir ölkənin ən genişmiqyaslı Korporativ Sosial Məsuliyyət (KSM) proqramlarından biri olan "Bakcell Stars" proqramını həyata keçirir. Xüsusi qayğıya ehtiyacı olan və valideyn himayəsindən məhrum olmuş uşaqların inkişafına həsr olunmuş layihələr çərçivəsində indiyə kimi minlərlə uşaq və gənc "Bakcell" şirkətindən dəstək alıb.

"SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İB və "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə həyata keçirilən onlarla layihə vasitəsilə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, onların asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə inteqrasiya olunmaları istiqamətində işlər görülüb.





**Qoç** - Təcili işləri daha yaxşı hesab etdiyiniz zamanadək ertələməyin. Başladığınız işi yanlışlıqlarsız, səhvsiz yerinə yetirməyə çalışın. Vaxtınıza qənaət edin. Yaşama daha pozitiv baxın.



**Buğa** - Yaradıcılıq ideyalarınız bol olacaq. Prosesin maraqlı olması üçün fəaliyyətinizi məntiqli təşkil edin. Aldığınız məlumatları qaydaya salın, gərəksiz informasiyalara ciddi önəm verməyin.



**Əkizlər** - Yaranmış problemləri ən müxtəlif instansiyalarda həll etməyə çalışın. İşdə həmkarlarla və ya işgüzar tərəfdaşlarla müzakirələr üçün əlverişli zamandır. Hər şeyi təmkinlə, sakit şəkildə həll etmək olar.



**Xərçəng** - Yaradıcı potensialınızdan maksimum istifadə edin. Görüşü, diskussiyanı, müzakirələri təxirə salmayın. Energetik səviyyəniz yüksəkdir. Təmaslardan yeni layihəniz üçün yararlanın.



**Şir** - Günün ilk yarısından etibarən maddi məsələlərin həllinə başlayın. Situasiyanın yaratdığı süni məhdudiyyətlərin qarşısında geri çəkilməyin. Planlarınızı reallaşdırın, istəklərinizi unutmayın.



**Qız** - İstənilən, hətta ən kiçik hadisələri təhlil etməklə vaxtınızı hədər keçirməyin. Sürətli seçim edin və dərhal işə başlayın. Ev işlərini görmək, məişət qayğılarını çözmək üçün yaxşı zamandır.



**Tərəzi** - Günün ilk yarısı neytral zamandır. Cari işlər, rutin qayğılar diqqət və sərvaxtlıq tələb edir. Münasibətlərdəki xaosu aradan qaldırın, nizamsızlığın səbəblərini tapın. Başladığınız işi keyfiyyətlə görün.



**Əqrəb** - Yaşamın yaratdığı problemlər nə qədər ağır olsa, fəaliyyətiniz bir o qədər maraqlı təsir bağışlayacaq. Kreativ olun, amma başqasının əvəzinə çalışmayın. Özünüzü çox yormayın.



**Oxatan** - Günün ilk yarısı ağır zamandır. Təcili həll tələb edən məsələlərin sayı artacaq. Başqalarının işini görməyin. Ağır və mürəkkəb iş yaşam situasiyası ilə bağlı nigaranlıqdan qurtulmağa imkan verəcək.



**Oğlaq** - Günün ilk yarısında baş verəcək dəyişikliklərdən və formalaşan situasiyalardan yararlanaraq fəaliyyət istiqamətinizi dəyişə bilərsiniz. İş qrafikinə və planlara yenidən baxın.



**Dolça** - Sərt danışmayın, əsəblərinizi qoruyun. Konkret məsələ ilə bağlı mövqeyinizi yaxın ətrafınızdakı insanlara bildirəndə ehtiyatlı olun. Peşəkar fəaliyyət prosesini yaxşılaşdırmağa çalışın.



**Balıqlar** - Təmkinli olun, təxribatlara uymayın. Düşünülməmiş qərarlar xoşagəlməz vəziyyət yaradacaq. Başqasının badına getməyin. Aktiv fəaliyyətə can atsanız belə, cari işləri unutmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Kosmonavtlar 10 ildir açıq kosmosda qalan dəsmalı götürdülər

**Rus kosmonavtlar Oleq Kononenko və Aleksey Ovçinin açıq kosmosa çıxıblar. Beynəlxalq Kosmik Agentliyin səthində, açıq kosmosda iş zamanı çox maraqlı detal aşkar ediblər.**

"Bizimyol.info" xəbər verir ki, kosmonavtlar oradan 10 ildir kosmosda qalan dəsmalı götürüblər. Bundan o vaxt həmkarları skafandrları silmək üçün istifadə etmişdilər. Dəsmalı tədqiqat üçün Yer kürəsinə gətirəcəklər. Kononenko və Ovçinin açıq kosmosa ilk dəfə çıxmış adam kimi tarixə düşən Sovet İttifaqı qəhrəmanı Aleksey Leonovun avtoqrafını da aparıblar.

Beləcə, bu gün 85 yaşı tamam olan kosmonavtı təbrik ediblər. Kononenko və Ovçinin dünən axşam açıq kosmosa çıxıb.

Onlar Beynəlxalq Kosmik Agentlikdən kənarda 6 saat keçirməliydi.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.